QARABAĞ AZƏRBAYCANDIR!

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İŞIĞININ NURLANDIRDIĞI YOL



5

# Azərbaycanla Türkiyə daim bir-birinin yanında olacaq!

Prezident İlham Əliyev Türkiyənin milli müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Səs

№ 223 (6664) 6 **dekabr** 2022-ci il. **Qiyməti 60 qəpik**



2

# Sərt ritorika siyasəti: hücum diplomatiyasının uğur tandemi!



6

**Hələ 44 günlük müharibədən bir neçə il əvvəl Azərbaycan Prezidenti İlham Əliyev müxtəlif platformalardakı çıxışları zamanı digər ölkələrlə həyata keçirilən balanslı siyasət mexanizmini saxlamaqla paralel olaraq hücum diplomatiyasına keçid tezislərini irəli sürürdü və təkcə bu faktor artıq belə qənaətə gəlməyə...**

## "Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanmasının həllini hədəfləyir"



7

## Ölkə əhəmiyyətli abidələrimiz - Şəki xan məscidi



3

## Könlünün səsini dinləyənlər...



8

## Veriko Turaşvili: "Başa düşdüm ki, bunlar Azərbaycan xalqının mənəvi irsidir"



15

## Xorvatiya millisi 1/4 finalda!





# İlham Əliyev: “Ölkəmizdə sistemli və dinamik inkişaf edən könüllülük hərəkatı mövcuddur”

Könüllülük və xeyirxahlıq ənənələri xalqımızın əsrlərin sınağından çıxmış milli-mənəvi dəyərlər sistemində xüsusi yer tutur. Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə ötən əsrin 90-cı illərindən ölkəmizdə vüsət almağa başlayan könüllülük hərəkatı məhz həmin dəyərlər zəminində genişlənərək yeni məna və məzmun kəsb edib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Prezident İlham Əliyevin Azərbaycan könüllülərinin V həmrəylik forumunun iştirakçılarına təbrikində yer alıb. Dövlətimizin başçısı qeyd edib ki, vətəndaşın, cəmiyyətin və dövlətin birgə fəaliyyətini təcəssüm etdirən könüllülük bu gün də ölkəmizdə gənclər siyasətinin mühüm istiqamətlərindəndir. 2020-ci ilin respublikamızda ”Könüllülər ili” elan olunması Azərbaycan dövlətinin könüllülər hərəkatına nə dərəcədə böyük əhəmiyyət verdiyini göstərir.

Məktubda daha sonra deyilir: ”Ölkəmizdə hazırda sistemli və dinamik inkişaf edən könüllülük hərəkatı mövcuddur. Könüllülərin sosial sahədə, ictimai xidmətlər sektorunda töhfəsi aydın hiss olunur. Onlar cəmiyyətin maraqları naminə təmənnasız fəaliyyət göstərərək müxtəlif mədəni tədbirlərin, idman yarışlarının, ekoloji və sosial aksiyaların, təbliğat və maarifləndirmə kampaniyalarının uğurla keçirilməsində, dövlət xidmətlərinin vətəndaşlara çatdırılmasında yaxından iştirak edirlər. Minlərlə könüllü 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana müqəddəs övladlıq borcunu şərəflə yerinə yetirmişdir.

Müharibədə qazandığımız parlaq Zəfərdən sonra ölkəmiz üçün artıq yeni dövr başlamışdır. Xalqımız müharibə meydanında nümayiş etdirdiyi hünəri azad olunmuş torpaqlarımıza həyatın yenidən qaytarılmasına yönələn genişmiqyaslı abadlıq-quruculuq və bərpa işlərində göstərir. İnanıram ki, siz könüllülər bütün qüvvə və bacarığınızı səfərbər edərək, Böyük Qayıdışın uğurla gerçəkləşdirilməsi prosesində də ön sıralarda dayanacaqsınız. Sizə bu nəcib amal naminə fəaliyyətinizdə nailiyyətlər diləyirəm”.

# Azərbaycanla Türkiyə daim bir-birinin yanında olacaq!

Prezident İlham Əliyev Türkiyənin milli müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyev dünən Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Quru Qoşunları komandanı, Hərbi Dəniz Qüvvələri komandanı və Hərbi Hava Qüvvələri komandanı daxildir.

Hulusi Akar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

Görüşdə 2022-ci ilin də Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafı baxımından çox uğurlu il olduğu bildirilib, əlaqələrimizin bütün sahələrdə, o cümlədən hərbi sahədə daha da gücləndiyi vurğulanıb. Bu baxımdan, hazırda ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin çox böyük önəm daşıdığı qeyd edilib. Azərbaycanla Türkiyənin bundan sonra da daim bir-birinin yanında olacağı bildirilib. Azərbaycana səfərinin Ümummilli Lider Heydər Əliyevin anım günü ərəfəsində olduğunu deyən Hulusi Akar Ulu Öndərin xatirəsinin Türkiyədə daim dərin ehtiramla anıldığını bir daha vurğulayıb.

Söhbət zamanı Azərbaycan və Türkiyə prezidentləri arasında keçirilən mütəmadi görüşlərin münasibətlərimizin inkişafında rolu xüsusi olaraq qeyd edilib və iki dövlət başçısının müəyyənləşdirdiyi qərarlar əsasında digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın uğurla davam etdiyi məmnunluqla vurğulanıb. Hulusi Akarın ölkəmizə səfərinin əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.



# Azərbaycan və Türkmənistan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir

Prezident İlham Əliyev Türkmənistanın Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 5-də Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib. Rəşid Meredov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Sərdar Berdiməhəmmədova və Qurbanqulu Berdiməhəmmədova çatdırmağı xahiş edib.

Söhbət zamanı Azərbaycanla Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən iqtisadi, nəqliyyat, humanitar sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub. Dövlətimizin başçısının bu il Türkmənistana səfərinin və səfər çərçivəsində Türkmənistan Prezidenti və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri ilə keçirdiyi görüşlərin əlaqələrimizin inkişafında rolu vurğulanıb. Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidentinin köməkçisini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitini qəbul edib. İqor Levitin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırıb, Prezident İlham Əliyev də salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş edib. Görüşdə Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin, o cümlədən iqtisadi əlaqələrin inkişafından məmnunluq ifadə edildi, nəqliyyat-infrastruktur sahələrində həyata keçirilən birgə işlərin önəmi qeyd olunub.

Söhbət zamanı ikitərəfli və regional müstəvidə nəqliyyat, tranzit, logistika, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi imkanlarının genişləndirilməsi və Zəngəzur dəhlizi ilə bağlı məsələlər müzakirə edilib.

# Ölkə əhəmiyyətli abidələrimiz - Şəki xan məscidi





Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədi ilə yaradılmış Heydər Əliyev Fondunun fəaliyyətə başladığı zamandan bu günə qədər həyata keçirdiyi layihələrin, tədbirlərin hər biri Azərbaycanın tərəqqisi və xalqın rifahının yaxşılaşmasına xidmət edib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın hər bir layihəsi Azərbaycanın işıqlı sabahına əvəzsiz töhfədir. Xatırladaq ki, Heydər Əliyev Fondunun tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələri sırasında ölkədaxili dini abidələrin bərpa və təmiri önəmli yerlərdən birini tutur. Vurğulayaq ki, dünya xalqları arasında özünəməxsus yeri olan Azərbaycan bəşəri ideyaları, adət-ənənələri, maddi və mənəvi xəzinəsi ilə zəngin irsə sahibdir. Bu sahəyə dövlət qayğısının artması dəyərlərimizi dünyada tanıtmaq sahəsində əhəmiyyətli rol oynayır. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra xalqımızın dini-mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, din və vicdan azadlığının təmin olunması, dövlət-din münasibətlərini tənzimləyən qanunvericiliyin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, dini abidələrin, məscidlərin, ibadət evlərinin təmir və bərpa olunması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edib. Əlbəttə ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə verdiyi töhfələr də əhəmiyyət kəsb edir. Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Gəncə İmamzadə kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilib. Xüsusi olaraq vurğulayaq ki, paytaxtımızda Heydər Məscidi kimi Cənubi Qafqazın ən böyük və müasir məscidi tikilib. Heydər Əliyev Fondu tərəfindən "Tolerantlığın ünvanı - Azərbaycan layihəsi çərçivəsində ölkənin müxtəlif yerlərində çoxsaylı məscid və ibadət evləri bərpa edilib. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Bakı şəhəri Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinə, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpasına dövlətimiz tərəfindən ayrılan diqqətin bariz nümunəsidir. Yeni Günəşlidə daha müasir və geniş məscid kompleksinin olması məsciddə, eyni zamanda, 1800 nəfərin ibadət etməsinə imkan verir.

### HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN ŞƏKİ XAN MƏSCİDİ KOMPLEKSİNDƏ BƏRPA İŞLƏRİ APARILIB

Bu səpkidə keçirilən layihələrin davamı olaraq Şəki Xan məscidi kompleksi də əsaslı bərpa işlərindən sonra istifadəyə verilib. Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış olublar. Tarixi Şəki Xan məscidində bərpa işləri 2021-ci ilin may ayından etibarən, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanı nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə tədqiqatların aparılmasına da dəstək göstərib. Ölkə əhəmiyyətli abidə siyahısında olan məscid xanlıqlar dövrünə (1745-1750-ci illər) aid edilir. Tarixi məlumatlara və üzərində qeyd edilən kitabələrə əsasən, məscid Hacı Məhəmmədhüseyn xan tərəfindən inşa olunub. Məscidin yanında yerləşən qəbiristanlıqdakı əsas 13 qəbir xan nəslinin nümayəndələrinə aiddir. Mənbələrdə də qeyd olunduğu kimi, qəbiristanlıqda yalnız xan nəslinin nümayəndələri dəfn olunduğundan "Xan qəbiristanlığı" adı verilib. Məscidin 21 metrlik minarəsi bişmiş kərpic və əhəng məhlulundan istifadə edilməklə inşa olunub. Burada eyvana qalxmaq üçün dairəvi pilləkən var. Məscidin ön fasadında olan tağvari eyvan isə məscidə xüsusi gözəllik verir. Məscidin bərpası layihəsi 1981-ci ildə hazırlansa da, sonrakı illərdə heç bir iş görülməyib.

*Ardı Səh. 4*



# Ölkə əhəmiyyətli abidələrimiz - Şəki xan məscidi











Əvvəli Səh. 3

## MƏSCİDDƏ BƏRPA İŞLƏRİ ÇƏRÇİVƏSİNDƏ BÖYÜK ÖLÇÜLÜ SAL DAŞLAR AŞKAR EDİLİB

Heydər Əliyev Fondu tərəfindən 2021-ci ildə başlanan bərpa işləri çərçivəsində əvvəl Şəki şəhərinin "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən Xan məscidi kompleksində 3D ölçmə işləri aparılıb. Bu işlər məscid kompleksinin ilkin görüntüsünün əldə edilməsi baxımından əhəmiyyətli olub. Ərazidə yerləşən tikililər - məscidin əsas binası və minarə, yardımçı tikililər, kompleks ərazisinin hasarı və orada yerləşən məzarlıq skan edilib, məscidin 3D modeli hazırlanıb. Məscid kompleksinin əldə olunan ilkin görüntüsü əsasında aparılan bərpa işləri zamanı iqlim təsirinə görə, yararsız hala düşən kərpiclər yeniləri ilə əvəzlənib, yeri bişmiş kərpiclə yenidən döşənib. Minarədə olan kərpicləri eroziyadan mühafizə etmək üçün xüsusi materiallarla izolyasiya qatı yaradılıb. Eyni zamanda, məscidin ilkin tikintisi zamanı olan pəncərələr və Məhəmmədhüseyn xanın istifadə etdiyi qapı bərpa edilib. Məscidin həyətindəki köhnə su hovuzunun əvəzinə yeni hovuz inşa olunub. Həyətdəki Xan çinarları və digər ağaclar ətrafında mühafizə zonası yaradılıb. Məlumat verilib ki, məsciddə bərpa işləri çərçivəsində 2021-ci ilin iyun ayında mehrabın altı qazılarkən oradan böyük ölçülü sal daşlar aşkar edilmişdi. Bu səbəbdən, həmin hissədə bərpa işləri dayandırılmış və Şəki arxeoloji ekspedisiyası tərəfindən yoxlamalar aparılmış, ekspedisiyanın tədqiqatı və qazıntı işləri nəticəsində həmin hissədə qəbir aşkar olunmuşdur. Qəbirdən 52 muncuq və tunc təsbeh başlığının tapılması dəfn olunanın yüksək dini və ya dövlət statuslu şəxs olması ehtimalını yaradırdı. Mütəxəssislərə dəstək məqsədilə Heydər Əliyev Fondunun köməyi ilə aşkar olunan skeletdən nümunələr götürülüb, radiokarbon və genetik analizlər aparmaq üçün Böyük Britaniyanın Oksford Universitetinin laboratoriyasına göndərilib. Aşkar olunan skelet nümunələri və məscid ərazisindəki xan nəslinə aid digər qəbirlərdən götürülən nümunələr əsasında Böyük Britaniya ilə yanaşı, Avstriya, Estoniya və Türkiyədə də tədqiqatlar, genetik analizlər aparılıb. Laborator analizlərin nəticəsinə, eləcə də AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi rəyinə əsasən, aşkar edilən qəbirin Şəki xanı Məhəmmədhüseyn xana aid olduğu təsdiqlənib.

## ŞƏKİ XANLIĞININ MİLLİ DÖVLƏTÇİLİK TARİXİMİZDƏ YERİ

Onu da bildirək ki, məscid kompleksinin ərazisində Heydər Əliyev Fondunun dəstəyi ilə muzey də yaradılıb. Muzeydə Şəki xanlığı dövrünə aid fərqli eksponatlar, müxtəlif mənbələrdən toplanan maddi-mədəniyyət nümunələri təqdim olunur. Muzey əyani şəkildə Şəki xanlığının yaranmasının, formalaşmasının milli dövlətçilik tariximizdə xüsusi yerini nümayiş etdirir. İki mərtəbədən ibarət olan muzeyin birinci mərtəbəsində Şəki xanlığı dövrünə aid mis qablar, milli geyimlər, zərgərlik məmulatları, XVIII əsr Şəki tacirlərinin evlərini bəzəyən divar güzgüləri, Şəki adət-ənənəsi üzrə onların qarşısına qoyulan mücrülər, Şəkinin kəlağayı sənətinə aid nümunələr sərgilənir. Muzeyin birinci mərtəbəsində təqdim olunan elektron lövhədə Azərbaycan və ingilis dillərində Şəki xanlığının tarixi, siyasi, sosial-iqtisadi həyatı, mədəniyyəti və Şəki xanları barədə məlumatlar çatdırılır. İkinci mərtəbədə isə Şəki xalçası, müxtəlif xalçaçılıq ləvazimatları, Əbdüllətif Əfəndinin "Şəki xanlarının tarixi" kitabı və Şəki xanlığı dövrünə aid yazılı ədəbiyyatlar, şəbəkə nümunəsi, XVIII əsr Şəki xanlarının dövründə istifadə edilmiş sikkələr, XVIII-XIX əsrə aid silah nümunələri nümayiş olunur. Muzeyin əsas hissələrindən biri ikinci mərtəbədəki xan otağıdır. Həmin otaq Şəki xanı Məhəmmədhüseyn xan Müştağın bu binada ibadət etməsini, ədəbi məclislər təşkil etməsini, müxtəlif qəbullar həyata keçirməsini, şahmat oynamasını əyani şəkildə nümayiş etdirir.



## MƏDƏNİ İRSİMİZƏ QARŞI GENOSİD

Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Ermənistanın otuz ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal altında olan ərazilər darmadağın edilib, erməni vandallığına və təcavüzünə məruz qalıb, o məkanlardakı misilsiz mədəni irsimizə çox böyük ziyan dəyib. Yüzlərlə tarixi abidənin - muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbiristanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunması erməni əməllərinə bir daha dünyaya təqdim etdi. Məlumdur ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etmişdir. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yəni autentik simasının pozulmaması prinsipi əsas götürülür. Vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.shusha.todayportalında da "Bizim Şuşa" adlı bölmədə şəhərin yarandığı gündən işğal olunduğu dövrə qədərki tarixi, ermənilərin Şuşa şəhərini işğal etməsi, 44 günlük müharibə, Şuşanın işğaldan azad edilməsi və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu münasibətlə xalqa müraciəti yer alıb. "Şuşada erməni vandalizmi" adlı ikinci bölmədə Şuşanın tarixi və mədəni abidələrinə qarşı erməni vandalizmi, Şuşanın Dövlət Tarix-Memarlıq Qoruğu elan edilməsi və bu qoruğun işğaldan sonra dağıdılması, dünya, yerli və ölkə əhəmiyyətli mədəni irs nümunələrinin talan olunması, məhv edilmiş mədəni irs nümunələrinin siyahısı və həmin abidələrin nə vaxt və kim tərəfindən inşa olunması, ermənilər tərəfindən dağıdılması haqqında məlumatlarda diqqəti cəlb edir. Göründüyü kimi, bu gün ölkəmizdə bütün dini abidələr qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir.

***Zümrüd BAYRAMOVA***

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İŞIĞININ NURLANDIRDIĞI YOL



BU YOL - Prezident, Ali Baş Komandanımız İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur

"Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevə məxsusdur! Əslində doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, Ümummilli Liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Belə ki, tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, Ulu Öndəri Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir.Artıq kimsəyə sirr deyil Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yürütdüyü imperializm siyasi xəttinə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı facia ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

### ULU ÖNDƏRİN SƏSİ KREMLİN ÖLKƏMİZİN ƏTRAFINDA YARATDIĞI İNFORMASİYA BLOKADASINI YARDI

Bəli, 1990-cı ilin 20 yanvarında isə xalqımıza qarşı əsrin ən böyük cinayətlərindən biri törədildi. Dağlıq Qarabağa qarşı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal edildi, 20 mindən çox insan şəhid, 30 mindən artıq adam isə əlil, şikəst oldu. Belə ağır bir zamanda Heydər Əliyev öz həyatını təhlükə altına alaraq xalqı ilə birgə olduğunu bəyan etdi. Məhz Ulu Öndərin səsi Kremlin ölkəmizin ətrafında yaratdığı informasiya blokadasını yardı. Öncə Naxçıvanı çətin durumdan xilas edən Ulu Öndər, 1993-cü ildə xalqın təkidi və tələbi ilə Bakıya qayıtdı. Beləliklə, Azərbaycanın dövlətçiliyi, millətimiz və vətənimiz xilas oldu. Azərbaycan yenidən dinamik inkişaf tempi əldə etdi. Ən əsası isə SSRİ dövründə başlanan və məhz müstəqilliyimizə hesablanmış layihələr davam etdirildi, müstəqil dövlətimiz yaşadı. Artıq qarşıdakı məqsəd dövlətin qurulması, dövlətçilik ənənəsinin yaradılması, dövlət idarəçiliyi institutlarının formalaşdırılması və müstəqil ölkəmizin qanunvericilik bazasının təşkili idi. Bütün bunlarla yanaşı, müstəqil Azərbaycan dövlətinin xarici siyasət kursu formalaşdırıldı. Ulu Öndər bu vəzifələrin öhdəsindən ləyaqətlə gəldi. Azərbaycanda müstəqilliyin əbədiliyini, dönməzliyini təmin edən dövlət quruluşu yaratdı. Və həmin dövrlərdə ölkədə böyük bir qarşıdurma yaranmışdı. Heydər Əliyev zəkası ölkəmizi bu problemdən də xilas etdi. Məhz Ulu Öndərin səyi nəticəsində Azərbaycanda hüquqi dövlət quruldu. Bu günkü demokratik prinsiplərə sadiq, vətəndaş cəmiyyəti, inkişaf etmiş və sabit Azərbaycanın təməli məhz 1993-cü ilin yayında atıldı. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

### DAHİ LİDER HEYDƏR ƏLİYEV MÜSTƏQİL DÖVLƏTİMİZİN İLK KONSTİTUSİYASININ YARADICISI

Ulu Öndər Heydər Əliyev ictimai-siyasi sabitliyi qorumaq üçün qanunçuluğun yüksək səviyyədə təsbit olunması istiqamətində mühüm addımlar atdı. Ölkədə xaos və özbaşınalığın qarşısı alındı. Xalqın Heydər Əliyevə inamı, etimadı o dərəcədə yüksək idi ki, onun hər bir çağırışı Azərbaycan xalqının bütün təbəqələrində böyük əks-səda doğururdu. 1994-95-ci illərdə xarici qüvvələrin köməyi ilə bəzi dairələr Azərbaycanda dövlət çevrilişinə cəhd göstərdilər. Məqsəd ölkəmizin həyata keçirdiyi müstəqil siyasəti əngəlləmək, Azərbaycanı yenidən xarici qüvvələrin, imperiya dairələrinin təsiri altına keçirmək idi. Azərbaycan xalqının Heydər Əliyevə olan inamı hesabına dövlət çevrilişinə cəhdin qarşısı qətiyyətlə alındı. İctimai-siyasi sabitliyin təmin edilməsi iqtisadi islahatların həyata keçirilməsinə yol açdı. Dövlət idarəçiliyi ilə bağlı qanunlar hazırlanaraq təsdiq olundu. Ən başlıcası isə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edildi. Bu Konstitusiyanın müəllifi Ulu Öndər Heydər Əliyevdir. Azərbaycan xalqının siyasi taleyini, siyasi fəaliyyətini, məqsəd və məramını, iqtisadi və dövlət idarə üsulunu müəyyən edən Konstitusiyanın qəbul edilməsi olduqca əhəmiyyətli hadisədir. Bu Konstitusiya ilə Azərbaycanda hakimiyyət bölgüsü - qanunverici, icra və məhkəmə hakimiyyəti arasında bölgü müəyyənləşdirildi.

### "ƏSRİN MÜQAVİLƏSİ" - HEYDƏR ƏLİYEVİN TARİXİ SƏRVƏTLƏRİNƏ SAHİB ÇIXMASININ TƏSDİQİ

Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçısına çevrilməsidir. Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi nəhəng siyasi layihələrdən biri neft strategiyasıdır. Neft strategiyası bu gün də Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividendlər gətirməkdədir. Ulu Öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bu neft strategiyası dünyanın ən qabaqcıl neft şirkətlərini Azərbaycana investisiya yatırmağa cəlb etdi. Bu investisiyalar iqtisadi sabitliyin bərqərar olması üçün böyük rol oynadı. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bölgədə rolu genişləndi. O cümlədən iqtisadi islahatlar aparılması üçün böyük baza yaradıldı, sosial islahatlar üçün iqtisadi potensial əldə edildi.

Heydər Əliyevin həyata keçirdiyi nəhəng geopolitik layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi bu gün həm Azərbaycan, həm də region üçün böyük rol oynayır. Bütün iqtisadi təhlilçilərin və tədqiqatçıların fikri ondan ibarətdir ki, belə nəhəng layihənin həssas bir bölgədə, geopolitik baxımdan dartışmalar mərkəzi olan Cənubi Qafqazda həyata keçirilməsi yalnız böyük şəxsiyyətin - Heydər Əliyevin uzaqgörənliyi ilə reallaşa bilərdi.

### BU, BİRLİK YUMRUĞUDUR, BU, GÜC YUMRUĞUDUR. BUNDAN SONRA AZƏRBAYCAN YALNIZ İNKİŞAF, TƏRƏQQİ YOLU İLƏ GEDƏCƏK

Bəli, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyünün bərpasına nail oldu. Böyük Öndər Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".

Bəli, Ruhun şad olsun Ulu Öndər, Qarabağ Azərbayücandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəstndə "Dağlıq Qarabağ" problemi yoxdur!: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".Ona görə də Ulu Öndərin fiziki yoxluğu dövründə ölkəsini, millətini düşünüb, müstəqilliyimizin əbədi olması uğrunda qətiyyətlə mübarizə apara biləcək yeganə Lider Prezident İlham Əliyev cənablarıdır. Bütün bunlar isə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və Heydər Əliyev nurunun bizə tərəf saçılan əbədi şöləleridir!

**RƏFİQƏ KAMALQIZI**

QALİBİYYƏT STRATEGİYASI

# Sərt ritorika siyasəti: hücum diplomatiyasının uğur tandemi!

**Hələ 44 günlük müharibədən bir neçə il əvvəl Azərbaycan Prezidenti İlham Əliyev müxtəlif platformalardakı çıxışları zamanı digər ölkələrlə həyata keçirilən balanslı siyasət mexanizmini saxlamaqla paralel olaraq hücum diplomatiyasına keçid tezislərini irəli sürürdü və təkcə bu faktor artıq belə qənaətə gəlməyə zəmin yaradırdı ki, Azərbaycan torpaqlarının işğalı, habelə ərazilərində ikinci erməni dövlətinin qurulması siyasəti ilə barışmayacaq - gec, ya da tez işğalçı Ermənistanın, eləcə də bu ölkəyə havadarlıq edən digər ölkələrin cavabları həm döyüş, həm də diplomatiya meydanında veriləcək. Belə də oldu...**













### İlk qığılcımdan başlayaraq...

İlk qığılcım 2016-cı ilin aprelində dördgünlük müharibədə saçdı və Lələtəpə Zəfəri ilə sübut olundu ki, İlham Əliyev sözlərini havaya demir, əksinə əməli ilə sübuta yetirir. Bunun ardınca isə Günnüt Zəfərinə imza atıldı, Azərbaycan isbatladı ki, onun ərazi bütövlüyünə tərəf xor baxan gözlər kor ediləcək və edildi də. Və nəhayət, 2020-ci ilin 27 sentyabr-10 noyabr tarixləri arasındakı 44 günlük Vətən müharibəsi Şuşa Zəfəri ilə nidasını qoymuş oldu.

Məhz bu Zəfərdən sonra regionumuzda yaranan, eləcə də artan yeni reallıqlar bir sıra xarici siyasi dairələrin təlaşlarına, narahatlıqlarına səbəb olmağa başladı. Həmin dairələrin isə açıq-aşkar erməni havadarlarının olması da artıq kimsəyə sirr deyildi. Təlaşın, narahatlıqların, hətta zaman-zaman irəli sürülən təhdid dolu mesajların cavab möhürünü isə məhz Azərbaycanın qardaş Türkiyə ilə işğaldan azad edilmiş Şuşada imzaladığı tarixi Şuşa Bəyannaməsi vurdu və bununla ölkəmizin Cənubi Qafqazdakı daha yeni - möhkəm sülhə, qüdrətli dövlətə çevrilməsi strategiyası müəyyənləşdi.

### Ölkəmiz əleyhinə hərəkətə keçən bütün dairələr elə sanırdılar ki, dövlət başçımızın bu bəyanatları elə-belə, sadəcə bəyanat xətrinə deyilən ifadələrdir, amma...

Təbii ki, 44 günlük müharibədən sonra regionda yeni güc mərkəzinin - Azərbaycanın daha effektli fəaliyyəti müəyyən edildikdən sonra qarşıda keçiləsi bir sıra mühüm yollar dayanırdı - Zəngəzur dəhlizinin açılmasından Qarabağda qalan separatçı tör-töküntülərin çıxarılmasına, eləcə də bu yöndə ölkəmizə qarşı münaeələr, sədlər və baryerlər qoymağa çalışan ayrı-ayrı dövlətlərin iddialarına qədər hər bir məqam diqqətlərdən yayınmırdı. Məsələn, Fransa Senatının hər iki palatasının əlbəttə ki, ermənipərəst Makronun təlimatları ilə hərəkətə keçməsi və məşum qətnamə çıxarması, qonşu İranın erməniçilik havadarlığı, Rusiyanın məlum və qeyri-müəyyənlik altındakı var-gəlləri və s. Məhz bu qeyri-sabitliyin yaradılması cəhdləri fonunda daha hansı hadisələrə əl atılmadı? Gah İranın yük traylerləri Ermənistandan Xankəndiyə müəmmalı yüklər daşıyır, gah Qərbin emissarları Ermənistan üzərindən Xankəndiyə qanunsuz səfərlər edir, gah Ermənistandan Qarabağa hərbi məqsədli yüklər daşınır və s.

Yaşananlar sırasında Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə (!!!) bənzər oyunbazlıqlara son qoyulması ilə bağlı bəyanatlarını səsləndirdi, xəbərdarlıqları irəli sürdü. Ölkəmiz əleyhinə hərəkətə keçən bütün dairələr elə sanırdılar ki, dövlət başçımızın bu bəyanatları elə-belə, sadəcə bəyanat xətrinə deyilən ifadələrdir, amma bu dəfə də kökündən yanıldılar! Cari ilin avqustunda Azərbaycan əsgəri Laçın şəhərinə daxil oldu, keçmiş dəhliz nəzarətə götürüldü və qarşı tərəfə yeni Laçın yolundan istifadə etmək imkanı yaradıldı.

Təəssüf ki, onda da ermənilər və onların havadarları, elə Kreml dairələrinin nəzarəti altındakı RSK da daxil müxtəlif xarakterli pozuntulara yol verdilər. Bu da azmış kimi, Vardanyan adlı pozucu emissarı da Qarabağa göndərməklə hansısa planlarını icra edəcəklərini sandılar.

### Bu hələ Azərbaycanın mülki nazirliyi idi...

Nəticədə 2022-ci ilin noyabrın 3-də sadəcə 3-4 saatlığına dəhliz bağlandı və Xankəndidən Ermənistana getmək istəyən erməni maşınları kilometrlərlə bir-birinin arxasınca düzlənməyə, gözləməyə məcbur oldular. Çünki bu torpaqların əsl sahibləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin timsalında ekoloji problemlərin mövcud olduğunu əsas gətirməklə RSK komandanlığına haqlı iradlarını çatdırdı, dinləməyə və dərhal tədbir görməyə məcbur etdi.

Yeri gəlmişkən, bu hələ Azərbaycanın mülki nazirliyi idi və bununla ona da eyham vuruldu ki, əgər həmin əraziyə Azərbaycanın güc strukturları daxil olsaydı, təcili antiterror əməliyyatları keçirilsəydi vəziyyət tamamilə ayrı cür ola bilərdi!

Və fakt budur ki, artıq buz yerindən tərpənib və separatçılar boş-boş bəyanatlar verib vaxtı uzatmaqdansa şələ-şüləlerini toplayıb torpaqlarımızdan hansı üsullarla rədd olacaqları barədə düşünməlidirlər. Çünki sonradan çox gec olacaq...

### Azərbaycan-Türkiyə hərbi təlimləri: əslində bizə öz təbirincə "barmaq silkələyən" tərəfə BARMAQ SİLKƏLƏNMƏSİNİN necə olması gərəkliyi nümayiş olundu!

Nəhayət, 5 dekabr 2022-ci ildən başlayaraq iki qardaş və müttəfiq ölkə - Azərbaycan və Türkiyə Cəbrayılda, İmişlidə və Astara istiqamətində - son vaxtlar bizimlə təhdid dilində danışmağa cəhdlər göstərən İranla sərhədlərdə yüksək hazırlıqlı hərbi təlimlərə start verdilər və bu təlimlər hələ bir müddət əvvəl Araz çayı üzərində panton salan Tehran rejiminə verilən ən mükəmməl cavab oldu. Bu dəfə Azərbaycanın pantonları suya salındı və əslində bizə öz təbirincə "barmaq silkələyən" tərəfə - başıəmmaməli saxta mollalara real BARMAQ SİLKƏLƏNMƏSİNİN necə olması gərəkliyi nümayiş olundu.

*Rövşən RƏSULOV*

***P.S. Bu gün bəzi Avropadakı dairələr də artıq gözlərinə od almağa başlayıblar ki, Azərbaycanın sərt ritorikası həm də əməli şəkildə icra olunur. Bu isə illər əvvəl Müzəffər Ali Baş Komandan, Qalib Sərkərdə, Azərbaycan Prezidenti İlham Əliyevin hücum diplomatiyası siyasəti, strategiyası ilə hərəkətə keçməyin məntiqi nəticəsidir. Artıq erməni havadarları, yaxud türkofobiya qalıntıları anlamağa məhkumdurlar ki, Qafqazda və dünyada Türk Əsrinin başlanğıc nöqtəsi qoyulub və bu reallığın müqəddəratını heç bir qüvvə poza bilmək iqtidarında deyil!***

# “Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanmasının həllini hədəfləyir”



**Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı məsələnin maksimum dərəcədə tezliklə həllini hədəfləyir. Trend xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov dünən Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşü zamanı deyib.**

”Müxtəlif qiymətləndirmələr aparıldı. Kimlərsə ilin sonuna kimi müddət dedi. Müddət baxımından bunu demək çətindir, amma Azərbaycan tərəfi bu məsələnin həllinə maksimum köklənib və sülh sazişindən danışanda bu məsələni tez bir zamanda həll etməyə hədəflənib. Azərbaycanla Ermənistan arasında 30 ilə yaxındır ki, heç bir münasibətimizin olmadığını nəzərə alaraq bu yanaşmaya əsaslanılır. Bu, təəssüf ki, düşmənçilik tarixidir, bu, müharibə tarixidir, bu, qarşılıqlı inam çatışmazlığıdır. Bu məntiqdən çıxış etsək, indiyə qədər bizim təklif etdiyimiz hər şey çox sadədir, əsas, beynəlxalq hüquqa əsaslanır, ardıcıl surətdə və iki istiqamətdə işləyir. Azərbaycanın səsləndirdiyi beş əsas prinsip də bu prinsipdən irəli gəlirdi. Orada Ermənistan üçün qəbuledilməz olan heç nə yox idi”, - deyə Bayramov bildirib.

Nazır daha sonra bildirib ki, normallaşma prosesində əsas məsuliyyət Azərbaycan və Ermənistan tərəflərinin üzərinə düşür və düşməlidir. ”Biz tez-tez eşidirik ki, müxtəlif layihələr, müxtəlif təşəbbüslər var, onlardan baza kimi istifadə oluna bilər və ya olunmalıdır. Biz Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması baxımından bu məsələni fundamental hesab edirik. Azərbaycanın bu məsələdə çox aydın məramı, baxışı, ən əsası bu məsələni həll etmək arzusu var. Məhz Azərbaycan tərəfi hərbi əməliyyatlar başa çatdıqdan və 30 ilə yaxın davam edən münaqişə və işğaldan dərhal sonra ölkə Prezidentinin timsalında düşmənçilik səhifəsini çevirməyə və sülh müqaviləsi üzərində işləməyə çağırış etdi. Məhz Azərbaycan tərəfi 2022-ci ilin fevralında gələcək sülh müqaviləsinin əsas prinsiplərini Ermənistan tərəfinə təqdim etdi.

Biz bu prosesə müsbət töhfə vermək istəyən bütün maraqlı, obyektiv beynəlxalq aktorlara minnətdarıq və beynəlxalq hüququn fundamental norma və prinsiplərini nəzərə alaraq bunu müzakirə etməyə hazırıq. Bu prosesdə birbaşa və ya dolayısı ilə iştirak edən bütün insanlar Azərbaycanın mövqeyinin çox ardıcıl və sistemli olduğunu təsdiqləyə bilərlər.

Bu məsələdə ayrı-ayrı gündəmlərə söykənən bəzi birtərəfli addımlar, qətiyyən müsbətə yönəlməyən addımlar atmağa çalışmaq təbii ki, əks-nəticə verir. Bəzi ölkələr tərəfindən bu məsələnin beynəlxalq təşkilatlara təqdim edilməsi hallarına rast gəlirik. Bu beynəlxalq təşkilatların bəziləri sırf humanitar xarakter daşıyır, heç vaxt bu məsələ ilə məşğul olmayıblar, əslində münaqişələrlə məşğul olmurlar.

Əsas məsuliyyət, ilk növbədə, Azərbaycan və Ermənistan tərəfinin üzərinə düşür və düşməlidir.

30 illik münaqişənin tarixi bizə göstərdi ki, sadəcə oturub bizim əvəzimizə kiminsə gəlib bu məsələni həll edəcəyinə ümid bəsləmək bir qədər sadəlövh yanaşmadır. İlk növbədə, hazırlıq, siyasi iradə, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət bu istiqamətdə irəliləməyə kömək edə bilər. Azərbaycan dəfələrlə bəyan edib ki, biz bu prosesə müsbət təsir göstərə biləcək, obyektiv yanaşan və mənfi maraqları olmayan beynəlxalq aktorlarla əməkdaşlığa hazırıq. Regionda öz təsirlərini süni surətdə artırmaq, bölgəni digər ölkələrlə qarşıdurma meydanına çevirmək cəhdləri çox mənfi haldır”, - deyə Bayramov qeyd edib.

# “Paşinyan növbəti dəfə yanıldı”

“Ermənistan Baş nazirinin Brüssel danışıqlarının beşinci raundunda Fransa prezidentinin də iştirakını tələb etməsi son dərəcə məntiqsiz və əsassız tələb idi”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, E.Makron danışıqlarda hansı qisimdə iştirak etməli idi: ”Vasitəçi kimi? Bundan əvvəl keçirilən danışıqların dörd raundunda vasitəçi kimi iştirak etməyən Fransa prezidenti indi nədən, hansı əsasla vasitəçi qismində danışıqlarda iştirak etməli idi? Üstəlik, bu günlərdə kana-l2 televiziyasına müsahibə verərək, Azərbaycanı dəhşətli müharibə başlayaraq çoxsaylı insan ölümündə günahlandırandan, açıq mətnlə ”biz Ermənistanı tək qoymayacağıq”-deyəndən sonra E.Makron necə tərəfsiz sayıla və danışıqlara vasitəçi kimi buraxıla bilərdi? Bəlkə ermənilərin lideri Fransa prezidentinin Azərbaycan-Ermənistan danışıqlarına tərəf kimi buraxılmasını istəyirdi? Azərbaycan rəhbərliyi



bunu o vaxt müzakirə edə bilərdi ki, Paşinyan danışıqlardan çəkildiyini və Ermənistanı bundan sonra Makronun təmsil edəcəyini bəyan etmiş olsun. Göründüyü kimi, bu cür mənasız tələb yalnız ”küçədən gələn” Ermənistan hakimiyyəti tərəfindən irəli sürülə bilərdi. Çünki səviyyəli, savadlı siyasətçilər anlayardılar ki, Fransa bu danışıqlarda nə tərəf kimi, nə də vasitəçi kim qətiyyən iştirak edə bilməz. Görünür, N.Paşinyan bu şərti irəli sürərkən güman edirdi ki, Azərbaycan Prezidenti bu tələbin nə qədər əsassız olduğuna əhəmiyyət verməyəcək və fransızları bir az da narazı salmamaq üçün Makronun danışıqlarda iştirakına imkan verəcək”.

A.Səmədov onu da bildirdi ki, Ermənistanın Baş naziri növbəti dəfə yanıldı və dövlət başçımızın kəskin mövqeyi ilə üzləşdi: ”Nəticədə, Brüssel görüşünün nəzərdə tutulan vaxtda keçirilməsi ciddi təhlükə altına düşdü. Çox güman ki, ermənilərin təqsiri ucbatından danışıqların beşinci raundunun dekabrın 7-də baş tutması mümkün olmayacaq. Ancaq Brüssel platforması Azərbaycan üçün mühüm əhəmiyyətə malikdir və Paşinyanın pozuculuq fəaliyyətinin onu sıradan çıxarması mümkün olmayacaq. Bir qədər gec olsa da, Brüssel prosesi Şarl Mişelin vasitəçiliyi ilə bundan sonra da davam edəcək və ümid edirik ki, sülh sazişinin imzalanmasında mühüm rol oynayacaq. Ermənistanın Azərbaycanla sülh danışıqlarını, sərhədlərin müəyyənləşdirilməsi istiqamətində işləri davam etdirməyə hazır olduğunu bəyan etməsi təbii ki, etimad doğura bilməz. Brüssel prosesini pozulmaq təhlükəsi qarşısında qoyan N.Paşinyan Fransa prezidenti iştirak etmədən danışıqları davam etdirməyə hazır olduğunu açıq şəkildə ortaya qoymalıdır. Əks halda, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel erməni Baş nazirin səviyyəsini nəzərə alaraq bu pozuculuq fəaliyyətinin Ermənistan üçün ciddi problem yaradacağını mümkün qədər sadə cümlələr qurmaqla ona izah etməyə çalışmalıdır”.

***Gülyana***

# “Azərbaycan rəsmi şəkildə Rusiya ərazilərinin toponimləri ilə bağlı təhriflərə yol verməyib”



***POLİTOLOQ ŞƏRH ETDİ***



“Hesab edirəm ki, atılan bu addımlar Rusiya tərəfindən Azərbaycanın ərazi bütövlüyünə qarşı növbəti hörmətsizliyin göstəricilərindən biridir. Təəssüflər olsun ki, Azərbaycan Müdafiə Nazirliyinin demək olar ki, hər gün xəbərdarlıq etməsinə baxmayaraq Rusiya Müdafiə Nazirliyinin rəsmi bülletenlərində Azərbaycan toponimlərinin qondarma erməni adları ilə əvəz edilir. Son olaraq sülhməramlıların komandanının verdiyi açıqlamalar da bu mövzuda Rusiya hərbi rəhbərliyi arasında fikir ayrılığının olduğunun göstəricisidir. Bu qəbuledilməz hesab edilməlidir. Çünki Azərbaycan bu günə qədər Rusiyanın hansısa toponimlərini qondarma adlarla adlandırmayıb”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tural İsmayılov bildirib.

Onun sözlərinə görə, Azərbaycan dövləti tərəfindən rəsmi şəkildə Rusiya ərazilərinin toponimləri ilə bağlı hansısa təhriflərə yol verilməyib: ”Bütün bunlara rəğmən Rusiyanın Azərbaycan ərazilərindəki toponimləri təhrif etməsi, orada adlanmalarla bağlı Azərbaycan Respublikasının rəsmi qurumlarının dəfələrlə etdiyi çağırışları qulaqardına vurması Azərbaycan-Rusiya münasibətlərinin gələcəyi baxımından əsla qəbuledilən deyil.

Xüsusilə Rusiya baş nazirinin sonuncu dəfə Bakıya səfəri və bu gün də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Moskvada Lavrovla keçirdiyi görüşlərdə Azərbaycanla Rusiya arasındakı iqtisadi göstəricilərin sürətlə yüksəldiyini qeyd etməsi, həmçinin Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin pandemiyadan əvvəlki dövrə qayıtması ilə bağlı müsbət rəqəmlərinin ortada olması siyasi əlaqələrində inkişafını özündə birşlədirir. Bu baxımdan Rusiyanın bu addımları təxribat hesab edilməlidir və təcili surətdə Rusiya Müdafiə Nazirliyi komandanlığında təmsil olunan generallara bununla bağlı çağırış edilməlidir. Əksi olacağı təqdirdə hesab edirəm ki, Azərbaycan da Rusiyaya və Rusiya toponimlərinə qarşı eyni adekvat addımları atmalı və eyni tərzdə cavab verməlidir”.

***Səbinə Hüseynli***

TƏHLİL + YANAŞMA

**5 dekabr onların-könlünün səsinə qulaq asıb, onu dinləyənlərin günüdür. Beynəlxalq Könüllülər Günüdür. Bu gün, sözün həqiqi mənasında, tamamilə fərqli düşüncədə, yanaşmada olanların günüdür. O insanların günüdür ki, onlar heç bir qarşılıq gözləmədən, istəmədən məxsus olduqları cəmiyyətin, ictimai həyatın fəallarına çevrilirlər. Yardım etmək əsas məqsədləri olmaqla yanaşı, həm də onların həyatdan zövq alma, insanları xoşbəxt görmə amallarıdır.**

Könüllülük həqiqətən könül işidir. Heç də hər kəsin könlünün izn verə bilmədiyi işlərə qoşulmaq və görülən işlərdən heç bir təmənna gözləməmək işidir. Könüllülük fərqli insanların aldıqları qərardır. Elə bir qərar ki, bütütn dünyada bu cür insanları başqalarından fərqləndirir.

BMT Baş Assambleyası 1985-ci il dekabrın 17-də hər il dekabrın 5-nin Beynəlxalq Könüllülər Günü kimi qeyd olunması barədə qətnamə qəbul edib. Həmin tarixdən də hər il dekabr ayının 5-i dünyada könüllülərin günüdür.

Elə bu qətnamədən yola çıxıb Azərbaycanda könüllülüyün qədim tarixinə nəzər salmaq oxucularımız üçün də maraqlı olar deyib, söhbətimizə başlayaq...



# Könlünün səsini dinləyənlər...

## Yardım etməkdən gələn könüllülük

Qədim zamanlardan ta dövrümüzədək xalqımızın zəngin milli adət-ənənələrində, mentalitetində yardım etmək kimi bir adət dərin iz salmışdır. Bədii ədəbiyyat nümunələrimizdə də, bədii filmlərimizdə də bu adəti daim izləmiş, şahidinə çevrilmişik. Xalqımızın yaşlı və orta yaş qrupunda olan insanları isə bunu onlarla misallarla təsdiqləyirlər. Bu gün də kəndlərimizdə yardım etmək kimi adətlərimiz qalmaqdadır.

Tarixən kəndlərimizdə insanlar bir-birinə yardım əli uzatmaqla müxtəlif işlərin birgə-asanlıqla, tez bir zamanda görülməsinə nail olublar. Müasir gəncliyimizə bu cür adətlərimizdən söhbət açmaqla onlara bugünkü könüllülük prinsiplərinin təməlində qədimdən bu günədək yaşadılan adət-ənənələrimizin dayandığını anlatmaq gərəkdir.




Yadımdadır, uşaqkən kəndə gedərdik. Yay tətilində həftə ilə, ayla kənddə qalardıq. Nənəm elə olurdu ki, bir neçə gün ard-arda qonşularda olurdu. Soruşanda ki, ay nənə, səni heç görə bilmirik, sübhün gözündən qalxıb haraya gedirsən, cavab verirdi ki, ay bala, Fatmanın, Növrəstənin və yaxud Səyyarənin çörək "iməcisinə", hara gedəcəyəm ki. Əvvəllər nənənin nə dediyini anlamasaq da, "iməci" nə deməkdir, başa düşməsək də, nənə bunları bizə səbrlə elə danışırdı ki, hərtərəfli anlayırdıq. Anlayırdıq ki, "iməci" köməkçi deməkdir. Deməli, kəndlərimizdə qadınlar təndirdə çörək bişirən zaman yaxın qonşulardan 4-5 nəfər qadın ona köməyə gedirdilər. Bu qadınların hər hansı biri çörək bişirəndə isə həmin qadınlar ona köməyə gəlirdilər. Beləliklə, yardım etməklə çörək bişirmək kimi çətin bir işin öhdəsindən asanlıqla gəlinir, cəmi 4-5 qadının əməyi ilə gün ərzində çörəkbişirmə başa çatırdı.

Çörək bişirmək həqiqətən çətin iş idi. Düşünürəm ki, bu barədə bilməyənlər, "burada çətinlik görəsən nədən ibarətdir?",- deyə fikirləşəcəklər. Əvvəlcədən deyim ki, bəli, çörək bişirmək çox çətin bir işdir. Ayda bir, külfət böyük olanda bəzən iki dəfə həyata keçirilən bu iş qadınlarımızın ən çətin işi hesab olunurdu. Çünki bir dəfə çörək bişirmək üçün bir neçə gün əvvəldən hazırlıq işləri görülürdü, çörək bişiriləndən sonra daha bir neçə gün isə yır-yığış işləri aparılırdı. Bir gün əvvəl təndir üçün odun tədarük olunurdu. Təndirdə ötən dəfədən qalan kül təmizlənirdi. Maya tutulurdu, un ələnirdi. Səhəri gün evin qadını sübh çağından xəmiri yoğurur, ardınca köməkçilərinə günorta yeməyi hazırlayır, təndiri salır (yəni yandırır), təndir düşənədək artıq gələn köməkçilər kündə tutmağa başlayırdılar. Təndir hazır olandan sonra 3-4 nəfər açır, bir nəfər isə çörəyi bişirib çıxarır, dəstələyirdi. Beləliklə, sübhdən başlayan iş axşam-toran vaxtınadək davam edirdi.

İndi qadınlarımızın əksəriyyəti rahatlıqları üçün bu işlərdən uzaqlaşsalar da, lakin kəndlərimizdə yenə də təndirlərdə çörək bişirən qadınlarımız var. Çünki bu çörəyin damaqlarda qalan dadını satın aldıqları çörəkdə hiss etmədikləri üçün yenə də özləri bişirirlər.

Kəndlərimizdə digər bir yardım növü də var. Həmin yardım bu gün də davam etməkdədir. Elə ki, mart ayı gəlib çıxdı, fevralın sonundan başlayan həftələr çərşənbələri araxada qoydu, torpaq oyandı, suların donu açıldı, hava istinməyə başladı, Novruz bayramı qeyd olundu, deməli, kəndlərimizdə əkin-biçin işlərinin ta başlamaq vaxtıdır. Bunun üçün ilk olaraq nə etmək lazımdır? Əlbəttə ki, su arxlarının çıxarılması (təmizlənməsi). Bu işdə insanlar hələ qədim dövrlərdən bir-birilərinə kömək etmişlər. Görəndə ki, qonşulardan biri əlinə bel alıb çıxıb həyətinə gələn arxı təmizləməyə, qonşular da bellərini götürüb gəliblər köməyə. Təbii ki, könüllü şəkildə.

Beləliklə də insanlar bir-birilərinə könüllü şəkildə yardım etməklə, həm də birliyin təməlini qoymuşlar. Birgə paylaşmağın, köməkli iş görməyin əhəmiyyəti zaman-zaman yetişməkdə olan nəsillərə də nümunə olub. Yəni, evlərimizdə böyüyən uşaqların zaman-zaman valideynlərindən gördükləri ni davam etdirmələri ilə milli-mənəvi dəyərlərimizin yaşadılmasına nail olmuşuq.

Könüllü şəkildə yardım etməklə bağlı onlarla belə misallar gətirmək olar. Kəndlərimizdə könüllü yardımetmə nümunəsi olan ot biçini, toy və yas, əsgər yolasalma, qarşılama və sadalamadığımız digər mərasimlərdən söhbət açsaq, hər birinin təməlində könüllülük prinsipinin dayandığının şahidi ola bilərik.

## Milli-mənəvi dəyərlərimiz üzərində qurulan könüllülük

Bəli, milli-mənəvi dəyərlərimizin qorunması, yaşadılması, həyatımızın bütün sahələrində tətbiqi bu gün nümunə gücündədir. Həmin dəyərlərin zaman-zaman bütün yeniliklərdə özünü göstərməsi isə hər birimizin gözü qarşısındadır. Bir xalq kimi xoşbəxliyimiz ondadır ki, bu dəyərləri qoruya bilmişik, bu dəyərlərin qorunmasını tövsiyə edən böyüklərimizin nəsihətinə sadiq qalmışıq. Bu barədə Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə Prezident cənab İlham Əliyevin dəyərli fikirlərini də xatırlamaq yerinə düşər: Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar.

Həqiqətən də qürurvericidir ki, milli dəyərlərimizin qorunması ilə bu gün biz birliyə, həmrəyliyə nail olmuşuq. Milli dəyərlərimizin yaşadılması, bir ölkə daxilində başqa millətlərdən olanlara hörmətlə, saygı ilə yanaşmağımızla birliyin ən gözəl nümunəsinə çevrilmişik. Bütün bunlar isə yetişməkdə olan gənc nəslin də tərbiyəsində özünü büruzə verir. Bunu son illər ölkəmizdə həyata keçirilən könüllülük hərəkatında da açıq şəkildə görmək mümkündür.

## 44 gün-könüllülük nümunəsi

2020-ci ilin 44 günlük Vətən müharibəsi Zəfərimizlə yanaşı, həm də könüllülüyün nümunəsi kimi tarixin səhifələrinə yazıldı. Bütün dünya könüllülük hərəkatının Azərbaycan nümunəsi qarşısında valeh qaldı. Milli ordumuzun Qarabağda torpaqlarımızın işğaldan azad olunması ilə bağlı başladığı proseslərə hər bir Azərbaycan gəncinin necə səylə atılmaq istədiyini müşahidə etdi. Ali Baş Komandanımızın əmrini gözləyən, Vətən üçün canını qurban verməyə hazır minlərlə gəncimizin hünərini gördülər.

44 gün könüllülük nümunəsi oldu. Çünki cəbhəyə yollanan övladlarımızın hər biri könüllü şəkildə döyüşlərə qatılmışdı. Onlardan dəfələrlə çox sayda gənclərimiz isə yuxarıda da qeyd etdiyim kimi, əmr gözləyirdilər. Bütün bunlar isə, bəli, ölkəmizdə gənclərin milli-mənəvi dəyərlərimiz əhatəsində böyüməsinin, adət-ənənələrimiz əsasında tərbiyə olunmasının göstəriciləri idi.

44 gün bu günün deyil, illər öncənin göstəricisi idi. Vətənpərvər gənclərin yetişdirildiyi illərin. Onların vətənpərvər ruhda böyüdükləri illərin. Bütün bu illər isə milli-mənəvi dəyərlərimizin qorunduğunun göstərici olan illər idi. Könüllülükdən yaranan birliyin, həmrəyliyin formalaşdığı illər....

Bütün bu dəyərlərimizlə də 44 gündə Vətən övladları böyük şücaət nümsyiş etdirdilər. Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələrinin bu müharibədə fəal iştirakı, şəhid və qazi olmaları isə ölkəmizdə multikultural dəyərlərin yüksək səviyyədə olduğunu göstərən amillərdir.

Tək müharibədə iştirak edən könüllü gənclərimizin deyil, cəbhəyə könüllü şəkildə hər cür yardım göstərən və göstərmək istəyən, arxa cəbhədə ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak edən vətəndaşlarımızın hər birinin Böyük Zəfərimizin qazanılmasında böyük əməyi oldu.

Beləliklə, 44 günlük Vətən müharibəsi qədim milli dəyərlərimizdən qaynaqlanan könüllülük prinsipinin ölkəmizdə yüksək səviyyədə olduğunu, eyni zamanda fərqli düşüncə tərzində olan, yeni gördüyü iş qarşılığında heç bir təmmənnada olmayan insanların burada çoxluq təşkil etdiyini təsdiqlədi.

## Azərbaycan-könüllülərin ünvanı

Azərbaycanda könüllülük hərəkatının başlanması və inkişafı bütün sahələrdə milli dəyərlərimizə asaslanmağı tövsiyə edən ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Böyük şəxsiyyətin ölkəmizə rəhbərliyinin ilk illərindən başlayaraq insan amilənə verilən dəyər, gənclərə göztərilən qayğı, onlara cəmiyyətin bütün sosial işlərinə qoşulmaları üçün verilən sərbəstlik, təhsildə və ictimaiyyətdə fərqlənən gənclərin yüksək vəzifələrə irəli çəkilməsi, onların inkişafı üçün ölkədə hərtərəfli şəraitin yaradılması mühiti eyni zamanda könüllülük hərəkatının başlanmasına və sonrakı illərdə inkişafına da təkan verirdi.

Daha sonra, 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyinin, BMT-nin İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsinin fəaliyyətə başlaması 1998-2000-ci illərdə bu proqramın nəticəsində Azərbaycanda güclü könüllü komandasının yaradılması və könüllülük prinsiplərinin geniş auditoriyaya təbliğinə start verilməsi ilə nəticələndi. 2009-cu ildə Milli Məclisin "Könüllü fəaliyyət haqqında" Qanun qəbul etməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.







Könüllülük hərəkatından söhbət düşəndə adamın gözləri önündə ilkin olaraq ölkəmizdə fəaliyyət göstərən "ASAN" könüllüləri canlanır. Çünki "ASAN xidmət"ə qədər də müxtəlif qeyri-hökumət və beynəlxalq təşkilatlarda yüzlərlə azərbaycanlı gənci könüllü kimi fəaliyyət göstərib. Lakin könüllülük hərəkatı olaraq bu fəaliyyət məhz "ASAN xidmət"dən başlayıb. Məhz 2012-ci il dekabrın 29-da 1 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışı zamanı bir qrup "ASAN könüllüsü" ilə görüşən Prezident cənab İlham Əliyev "ASAN" könüllülük hərəkatına tövsiyələrini verdi, onlara uğurlar arzuladı. Bu tövsiyələrin ötən illər ərzində könüllü gənclərimiz tərəfindən yüksək səviyyədə həyata keçirilməsi isə artıq bu hərəkatın təqdirəlayiq şəkildə olduğuna bariz nümunədir.

Bu gün ölkəmizdə idman, səhiyyə, sosial xidmətlər və digər onlarla sahədə könüllülər hərəkatının uğurlarından saatlarla, günlərlə danışmaq olar. Bütün bunlar isə bu hərəkatın təməlinin milli dəyərlər əsasında qoyulduğunun və davam etdirildiyinin göstəriciləridir.

Ölkəmizdə könüllülük hərəkatının inkişafında və bu sahədə qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolunu xüsusilə vurğulamaq lazımdır. Məhz Mehriban xanımın əzmkar fəaliyyəti nəticəsində müxtəlif mötəbər tədbirlərdə on minlərlə könüllünün fəaliyyətinə şərait yaradılmış, könüllülərin əməyi yüksək qiymətləndirilmişdir. Qürurverici haldır ki, bu iş davam etdirilir.

Prezident cənab İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzalaması ölkəmizdə könüllülük hərəkatına verilən dəyərin təzahürü idi. Sərəncamda deyilirdi: "Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir".

Bir sözlə, ölkəmizdə könüllülük hərəkatına nəzər salmaqla, könüllülərin sosial təşəbbüsləri ilə tanış olmaqla, təşkil etdikləri kampaniya və tədbirlərə, aztəminatlı, kömaksiz ailələrə yardım göstəmələrinə diqqət yetirməklə bu fikrə gəlmək olur ki, bəli, Azərbaycan könüllülərin ünvanıdır. Milli-mənəvi dəyərlərimiz fonunda böyüyən, cəmiyyətdə layiqli yerini tutmaq qabiliyyətində olan, təmənnasız yardım göstərmək, Vətəninə töhfə vermək istəyən insanların, bu hərəkatda xüsusilə çoxluq təşkil edən gənclərin ünvanıdır. Fərqli düşüncədə, fərqli yanaşmada, baxışda olan insanların...

Könüllük könül istər, ürək istər. Bu ki, bizim gənclərimizdə vardır, bu, ən böyük qürur, fəxrdir.

***Mətanət Məmmədova***

# Yeni il günü restoranlar niyə od tutub yanır?

***Son günlər bir çox ailənin müzakirə mövzusu Yeni il bayramını harada və necə keçirməklə bağlıdır. Təbii ki, bu bayramı evdə qeyd etməyənlər maddi durumu yaxşı olan insanlardır. Çünki məlum olduğu üzrə, bayram günləri restoranlarda adambaşı qiymət 2-3 qatına yüksəlir. Buna da hamının imkanı yoxdur. Yəni, yerdə qalan ailələr bayramı evdə qeyd etməyə daha çox üstünlük verirlər.***

SİA mövzu ilə bağlı araşdırma apararaq 31 dekabr tarixində restoranlarda adambaşına olan qiymətləri araşdırıb.

"Cratos Restoran" - Menyu, yemək-içmək, spirtli içki və konsert proqramı daxil bir nəfər üçün biletin qiyməti 150-200-250 manatdır. 5 yaşına qədər uşaqlar pulsuzdur. 5-12 yaş arası yarı qiymət, 12 yaşdan yuxarılar isə tam qiyməti ödəməlidir.

"Yeniozais Restoranı" - 31 dekabr yeni il gecəsi üçün biletin qiyməti 2 nəfərə qədər adambaşı 150 manat, əgər say 2 nəfərdən çoxdusa adambaşı 100 manatdır.

"La Chateau Restaurant" - 31 Dekabr tarixində baş tutacaq tədbirdə 1 nəfər üçün menu daxil olmaqla qiymət 150-200 azn təşkil edir.

"Bakucastle restaurant" -

2 nəfərlik masa - 250 azn (menyu daxil)

4 nəfərlik masa - 400 azn (menyu daxil)

6 nəfərlik masa - 550 azn (menyu daxil)

Qeyd edək ki, bu məbləğ, sadəcə, bilet qiyməti deyil, menyu daxildir".

"Niaqara Restaurant" - Şou proqram 31 dekabr saat 19:00 da baş tutacaq. Qiymət 250 - 300 AZN arası yerləşməyə görə dəyişir.

Biletə fiks menyu daxildir".

"Narsharab Restaurant" - Yeni il gecəsi Kristal zalda 1 nəfər üçün 200 azn, Golden zalda 1 nəfər üçün 120 azn təşkil edir.

Şərtlər: Minimum 4 nəfərlik rezervasiya qəbul olunur.













ARAŞDIRMA

Gördüyünüz kimi, minimum qiymət 100 AZN-dən başlayır. Yəni, normal maaşla yaşayan ailənin bu imkanlardan yararlanması mümkün deyil.

İndi isə keçənilki qiymətlərlə bu ilin qiymətlərini müqayisə edək.

"Kaddeh Baku" : Səhnə önü 250, qıraq yerlər 200, Vip zona adambaşı 150 AZN-dır. Lojalar 1500 AZN adam sayı: maksimum 6 nəfər.

Qeyd edək ki, qiymətə menyu daxil deyil.

"Private steak gallery" : Səhnəyə yaxın masalar 250 AZN-dır. Qış bağçasındakı ön masalar 220, arxa masalar isə 190 AZN-dır.

"Yüngül Cinayətlər" : 2 nəfər üçün depozit 300 AZN-dır.

"Gəmi Muzeyi Restoranı" : Adambaşı 120 AZN idi.

Bəs, Yeni ili restoranda qeyd edə bilməyənlər onu evdə necə daha maraqlı edə bilər?

## Gözəl bir masa hazırlayın

Yeni il günü gözəl bir masa hazırlayın. Ailə üzvləriniz və sevdiklərinizlə bayramı daha yaddaqalan edə bilərsiniz. Səmimi və qonaqpərvər bir mühit yaradın.

## Evi bəzəyin

Yeni il ruhunu tam hiss etmək üçün evi bəzəmək çox vacibdir. Bəziləri hətta bayramdan 1 ay əvvəldən bəzək-düzək işlərini hazır edir. Bunu edərkən mütləq uşaqlarınızı işə cəlb etməlisiniz. Çünki proses onlar üçün çox maraqlı olacaq. İsti bir bayram guşəsi hazırlayın. Yalnız sizin üçün kiçik bir guşə kifayətdir ki, hər dəfə evə girəndə üzünüzü güldürsün. Zövqünüzə uyğun seçdiyiniz şamları yandırın, qırmızı çiçəkləri adi şüşə vazalara qoyun.

## Oyun oynayın

Yeni il gecəsi hər kəsin yığışıb stolüstü oyunlar oynaması çox maraqlı olacaq.

## Maraqlı film izləyin

Ailəliklə Yeni ilə daxil olarkən maraqlı filmlər izləyərək müsbət auranı daha çox hiss edə bilərsiniz. Unutmayın ki, Yeni il mövzusunda olan filmlər çox əyləncəlidir və enerjinizi artıracaq.

DAİR Otellər və Restoranlar Assosiasiyası İdarə Heyətinin sədri və Azərbaycan Ekoturizm Assosiasiyasının icraçı direktoru Samir Dübəndi: "Dünyada və regionda baş verən siyasi, iqtisadi, sosial hadisələr bir çox ölkələrin məhsul idxal-ixrac proseslərini, o cümlədən logistikanı pozmuşdur.

Bunların nəticəsində qida məhsullarının qiymətləri artmış və hələ də bəzilərininki artmaqdadır. Digər tərəfdən bir sıra xidmətlərin qiymətlərinin və əmək haqqının ölkədə artması müşahidə olur.

Nəticədə, restoran biznesində qiymət artımı baş verir. Bayram və xüsusilə, Yeni il bayramlarında restoran xidmətlərinə tələb artır, hamı bayramı qeyd edir, banketlər, ziyafətlər və digər tədbirlər keçirilirlər. Tələbin artması halında isə təkliflərin qiymətləri artırlar. Bəzi hallarda əsassız qiymət artımı da müşahidə olur, bu ədalətli biznes prinsiplərini pozur. Belə hallara diqqətli olmalıyıq. Biz bu kimi hərəkətləri biznesdə və ümumilikdə qınayırıq.

Oxuculara tövsiyə etmək istərdim ki, tədbirlərini öncədən planlasınlar ki, son məqamda təklif olan yüksək qiymətlərlə və məhdud saylı təkliflərlə üzləşməsinlər. Hamıya şən Yeni il tətilləri arzulayıram!".

***Ayşən Vəli***

# Ermənistanda

## nəticələri pis olacaq yanlışlıqlar davam edir!







**Qarabağ ərazisində yaşayan erməni əsillilərin taleyini Rusiya sülhməramlılarına həvalə edən rəsmi İrəvan sanki qış yuxusundadır, çünki sülhməramlıların vaxtı bitdikdən sonra bölgəni tərk edəcəkləri barədə düşündüklərinin şahidi olan yoxdur. Hazırda erməni cəmiyyəti özü də etiraf edir ki, Ermənistanın mövcud hakimiyyəti Qarabağ ərazisindəki ermənilərin taleyi, mövcudluğu, gələcəyi barədə fikirləşmək belə istəmir və bütün məsuliyyəti Rusiya sülhməramlılarının üzərinə atmaqla kifayətlənir, hansı ki, bu barədə fikirlər işğalçı ölkənin mətbuat səhifələrində də yetərincədir.**

Cari ilin sonuna qədər sülh müqaviləsini imzalamağa razılıq verən Ermənistan tərəfi yenə də məsələni uzatmaq üçün əldən-ayaqdan gedir və belə getsə, bu ilin sonuna qədər həmin müqavilənin reallaşması mümkün görünmür. Əvvəla ona görə ki, işğalçı ölkə hələ də işğalçılıq siyasətindən, təxribatlarından, sərsəm iddialarından əl çəkmək niyyətində görünmür və biz bunu həmin ölkənin təxribatçı davranışlarından da görürük. Dünyaya səs salıb özlərini əzilmiş tərəf kimi göstərmək, bununla belə qonşu dövlətin, hətta dövlətlərin torpaqlarına iddialı olmaq hələ də erməni xislətinin əsasını təşkil edir və hələ də işğaldan azad etdiyimiz torpaqlara göz dikdikləri bunu təsdiq edir. Təsdiq edir ki, erməni "başbilənləri" hələ də işğaldan azad etdiyimiz torpaqlardan əl çəkməmək, orada hansısa statusa belə nail olmaq üçün dəridən-qabıqdan çıxırlar və bunun üçün mümkün bütün hiylələrə də əl atırlar, üstəlik, bu hiylələrini işlətmək üçün özlərinə, Fransa prezidenti Makron kimi bir marianet dəstəkçi də tapıblar. Deməli, niyyətlərinin sülh müqaviləsi olduğu barədə danışmaq belə mümkün deyil. Digər tərəfdən də axı 2023-cü il sürətlə yaxınlaşır və hələ də sülh haqqında düşünməyən İrəvandan bu ilin sonuna qədər qalan müddət ərzində nə gözləmək olar?

Rəsmi İrəvan nə edəcəyini özü də bilmir. Kənar təsirlər, təhrikçi qüvvələr hələ də Ermənistanı, cəhətləri bilinməyən dəryada yelkənsiz qayığa çevirib. Geosiyasi müstəvidə Ermənistanın tamamilə müəmmalı bir vəziyyətdə olduğunu erməni cəmiyyəti özü də yaxşı bilir. Yaxşı bilir ki, Rusiya ilə Qərb arasında qalan bir ölkənin onlardan hansına sığınacağı hələ sual altındadır. Qərbdən kömək uman, amma buna ümid etməyən ermənilər Rusiyadan da ümidlərini üzə bilmirlər, baxmayaraq ki, ruslara qarşı hədyanlar səsləndirməkdə də, xəyanət etməkdə də davam edirlər. "İndi biz nə etməliyik", sualına erməni mətbuatında tez-tez rast gəlinir. Bu isə o deməkdir ki, işğalçılar, separatçılar çox çətin durumda olduqlarının özləri hamıdan çox fərqindədirlər. Əbər yerə deyil ki, hələ də sülhməramlılara bel bağlayırlar və hətta sülhməramlıların bölgədə "əbədi qalması" üçün əldən-ayaqdan gedirlər, hansıki bunu erməni baş nazir Nikol Paşinyan da sonuncu üçtərəfli görüş zamanı böyük həvəslə səsləndirmişdi.

Bəli, Azərbaycan tərəfi açıq şəkildə bəyan edib və edir ki, Rusiya sülhməramlılarının yerləşdirilməsi müddətinin uzadılmasına qarşıdır. Artıq bundan sonra rus sülhməramlıların bölgədə qalmasına heç bir ehtiyac yoxdur, hansı ki, bunu da Ali Baş Komandan, Azərbaycan Prezidenti cənab İlham Əliyev həmin üçtərəfli görüşdə bəyan edib. Reallıq göz önündədir və görünən odur ki, Azərbaycan bölgədə təhlükəsizliyin təminatçısı statusundadır və bu zaman, məntiqi olaraq Rusiya sülhməramlılarına, ümumiyyətlə, sülhməramlıya ehtiyac qalmır. Bir halda ki, ölkəmiz özü sülhün təminatçısı kimi çıxış edir, o halda ərazilərimizə sülhməramlı yerləşdirilməsi məsələsi gendəmdə belə yer ala bilməz. Bunu başa düşən erməni cəmiyyətinin yuxusunun ərşə çəkilməsi, keçirdiyi narahatlıq anlaşılandır, çünki bu cəmiyyət bilir ki, Ermənistan dövləti də, hakimiyyəti də mövcud problemlərin öhdəsindən gələ bilmir və sığındıqları sülhməramlılara da ümid etmələri, kömək ummaları puç olan arzulardan başqa bir şey deyil.

Çoxdandır ki, işğalçı ölkənin mətbuat səhifələrində Rusiyanın məhz Ermənistana kömək etmək imkanının olmaması yer alır. Bu ölkə mətbuatında açıq-aşkar şəkildə qeyd olunur ki, Rusiyaya ümid etmələri əbəsdir, baxmayaraq ki, hələ də ermənilərin əksəriyyəti yenə də rusların onları vəziyyətdən çıxaracaqlarına göz dikiblər, çünki alışqandırlar və bu zamana qədər onların mövcudluğu məhz Rusiya faktoru sayəsində olub. İndi ermənilər şokdadırlar və onilliklər boyu sığındıqları ruslara, artıq bel bağlaya bilmədiklərini başa düşmələri səbəbindən çox çətin durumda olduqlarının fərqindədirlər. Həm də ermənilər ona görə şokdadırlar ki, Rusiyanın Türkiyə-Azərbaycan tandemi ilə nəinki mübarizə aparmaq imkanının, hem arzusunun, istəyinin belə olmadığını anlayırlar. Ələlxüsus, bu gedişlə 2025-ci ilin noyabrında Rusiyanın bundan daha zəif olacağını düşünən ermənilər hesab edirlər ki, həmin vaxt rus sülhməramlılarının bölgədə qalmaq şansı sıfıra bərabər olacaq, hansı ki, bu fikir erməni cəmiyyətini daha çox narahat edir.

Erməni cəmiyyətinin öz dövlətindən, öz hökumətindən gözləntiləri də onlar üçün ürəkaçan deyil. Ona görə ki, heç bir addım atılmadığının, mövcud hakimiyyətlərinin hansısa addım atmaq iqtidarında olmadığının ermənilər fərqindədirlər. Həmçinin, Ermənistan hakimiyyətindən eşitdikləri də onlar üçün xoşagələn deyil və bunu şok bəyanatlar adlandırırlar. "Bu gün Rusiya sülhməramlı qüvvələri Qarabağ ermənilərinin təhlükəsizliyinin təminatçısı və onların təhlükəsizliyinin təmin edilməsinə cavabdeh olan əsas qurumdur", deyə Ermənistan Parlamentinin Xarici Əlaqələr Daimi Komissiyasının sədri, hakim "Mülki Müqavilə" partiyasından deputatı Eduard Ağacanyan bildirib və bu erməniləri daha çox hiddətləndirib. Artıq ermənilər başa düşürlər və etiraf edirlər ki, vətəndaşı olduqları ölkənin hakimiyyəti nə qədər dar düşüncəli, iyrənc mövqedədir. Çünki bilirlər ki, belə fikirlər səsləndirməklə, sərsəm bəyanatlar verməklə işğalçı ölkənin hakimiyyəti öz qorxaqlığını, uğursuzluğunu və hətta xarici siyasət kursunun belə nəticəsiz, mənasız olduğunu qəbul edir. Yaxşı başa düşürlər, yaxşı bilirlər ki, Rusiya sülhməramlıları bölgəni tərk etdikdən sonra Qarabağdakı erməni əsillilərin taleyini kim qoruyacaq, sualına Ermənistan hakimiyyətinin cavabı yoxdur.

Həqiqətən də mövcud Ermənistan hakimiyyəti müharibənin qarşısını almağa, indi artıq geridə qalan məsələnin həllinin diplomatik yolla həll edilməsinə borclu idi. Halbuki ermənilər gördülər ki, bu hakimiyyət müharibənin qarşısını almaq əvəzinə təxribatlara əl atmaqla, bu təxribatları davam etməklə, sərsəm bəyanatları, hədsizliyi ilə müharibəni daha da körüklədi və nəticə də Ermənistan üçün, erməni xalqı üçün acınacaqlı oldu. Bəli, işğalçı ölkənin hakimiyyəti heç olmasa, rüsvayçı məğlubiyyətin qarşısını almağa, Azərbaycan tərəfinin döyüşün ilk günündən təklif etdiyi danışıqlara başğamağa borclu idi, lakin bunun da öhdəsindən gələ bilmədi. Müharibə Azərbaycan tərəfinin Zəfəri, əldə etdiyi qələbəsi ilə başa çatdıqdan sonra, post-müharibə dövründə də bu ölkə hakimiyyətinin danışıqları dürüst aparmaqdan boyun qaçırması da ermənilərin özlərinin diqqətindən yayınmır və onlar bilirlər ki, diplomatik müstəvidə məğlubiyyətləri fonunda vədlərini, öhdəliklərini yerinə yetirmək istəməyənlərin yenə də kimlərə isə, ələlxüsus mənasız yerə sülhməramlılara bel bağlamaları da ermənilər üçün növbəti bir faciə deməkdir. Görürlər ki, Fransa Senatının da, bu ölkənin Milli Assambleyasının da, prezidenti Makronun da ermənipərəst mövqeyi işlərinə yaramır və onları gözlədikləri faciədən qurtarası deyil. Deməli, Ermənistan dövlətinin, bu işğalçı ölkənin siyasətində yanlışlıqlar davam edir.

Ermənilər görürlər ki, Böyük Britaniya, İtaliya və bir sıra digər Avropa ölkələri, xüsusən də Serbiya rəsmi Bakını birmənalı şəkildə alqışlayır. Görürlər ki, Azərbaycan bütün ölkələr üçün layiqli, etibarlı tərəfdaş hesab olunur və həmin ölkələr bunu açıq şəkildə də bəyan edirlər. Azərbaycan indi Avropanın enerji təhlükəsizliyi üçün maraqlı ölkədir və məhz Qoca Qitənin enerji təhlükəsizliyinin təminatında rolu danılmazdır, hansı ki, bu, etiraf da edilir. Hal-hazırda Avropada enerji resurları ilə bağlı Rusiyadan imtina edildiyi bir vaxtda Azərbaycanın resurslarına ehtiyacın olduğu da bəllidir, deməli, bu iki ölkənin beynəlxalq arenada nüfuzunu müqayisə etmək belə mümkün deyil.

Ermənistanın öz müqəddəratı bu ölkənin hakimiyyətinin, hakim partiyanın "Mülki müqavilə" fraksiyasının əlində olmadığını görən erməni cəmiyyətinin kürkünə birə düşüb və görürük ki, bu, əbəs yerə deyil. Məsuliyyəti öz üzərinə götürməkdən qorxan Ermənistan hakimiyyətinin acizliyi göz önündədir, hansı ki, bu, erməni xalqını indi daha çox narahat etmələdir və edir də. Çünki bir zaman, daha dəqiq desək iki il bundan əvvəl erməni xalqını faciədən xilas edə bilməyənlərin indi də bacarmadıqları, bundan sonra da bacarmayacaqları diqqətdən yayınan deyil. Məhz buna görə erməni cəmiyyəti sanki tikan üstündədir. Ona görə tikan üstündədir ki, Ermənistan hakimiyyətinin buraxdığı və daha pis nəticələrə gətirib çıxaracaq yanlışlıqları davam edir və bunu da onlar özləri də görürlər.

***İnam Hacıyev***

# Fransız ikiüzlülüyü

## Faşizmi dirçəldən Makronun qərəzi tükənmir



Bəli, Qarabağda 44 günlük müharibə başa çatsa da, faşizmi dirçəldən Makronun qərəzli mövqeyi başa çatmaq bilmir. Xatırladaq ki, Bakı ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olaraq Fransanın daim ədalətli yanaşma ortaya qoymasını tələb edirdi. Lakin bunun əksi baş verirdi. Heç kimə sirr deyil ki, Fransa 44 günlük müharibənin ilk günündən ermənilərin maraqlarından çıxış edib, dünyanın gözü qarşısında işğalçılığa və separatizmə dəstək verirdi. Təəssüf ki, "demokratiyanın beşiyi" sayılan ölkə və onun bəzi təmsilçiləri indi də ermənipərəst mövqelərindən əl çəkmək fikrində deyillər. Parisin Dağlıq Qarabağ münaqişəsi fonunda daha çox üzə çıxan və aydın görünən erməni simpatiyası, ermənilərin haqlarını qorumağa çalışmaları nədən qaynaqlanır?Fransa siyasətçiləri hər zaman ölkə daxilində və xarici siyasətdə ermənilərdən istifadə ediblər və Ermənistana pozuculuq fəaliyyətində dəstək olub. Bu isə Cənubi Qafqazda revanşizmi gücləndirmək və sülhə qarşı təxribat deməkdir.Belə ki, noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda Praqa görüşündən sonra Fransanın təxribatlarını diqqətə çatdıran Prezident İlham Əliyev bəyan etdi ki Fransa Senatının və Milli Assambleyasının təxribatçı addımları isə yalnız vəziyyətin gərginləşməsinə xidmət etməklə yanaşı, iki ölkə arasında münasibətlərin normallaşmasına zərbə vurur: "Bütün bunlar bir daha təsdiq edir ki, Fransanın Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində hansısa formada iştirakı, ümumiyyətlə, mümkün deyil. Və Ermənistanın baş naziri N.Paşinyanın dekabrın 7-də Brüsseldə keçirilməli olan görüşdə Fransa prezidentinin iştirakını da istəməsi danışıqları pozmaqdan başqa bir şey deyil".Prezident İlham Əliyev bir daha qəti şəkildə bildirdi ki, belə bir şəraitdə Fransa Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında iştirak edə bilməz: "Onları bu formatdan kənarlaşdıran biz yox, özləri oldu. Çünki nə Rusiya, nə də Amerika, keçmiş Minsk qrupunun hansısa həmsədri heç vaxt rəsmən, yəni müharibədən sonrakı dövrdə tərəf tutmayıb, yalnız Fransa tutub. Deməli, bu o deməkdir ki, dekabrın 7-də Brüssel görüşü baş tutmayacaq və baxaq görək, hansı alternativimiz olacaq, vasitəçi kim olacaq, platforma harada olacaq. Mən Ermənistanın baş nazirinin bu qərarını sülh prosesini pozmaq cəhdi hesab edirəm, çünki onlar təsəvvür edə bilərdilər ki, biz buna qarşı olacağıq".Beləliklə, Fransa Milli Assambleyasında Azərbaycana qarşı qəbul olunmuş qətnamə reallığı əks etdirmir və tamamilə qərəzlidir. Senatın ardınca Milli Assambleyanın da yalan və böhtan dolu bir sənədi qəbul etməsi isə Fransanın ölkəmizə münasibətdə ədalətsiz yanaşmasının təzahürüdür. Çünki bütün dünyaya məlumdur ki, kim təcavüzkar, kim təcavüzə məruz qalan ölkədir. Və ATƏT-in Minsk qrupunun həmsədri olmuş bu ölkənin təcavüzkar Ermənistanı dost və müttəfiq hesab etməsi, Ermənistana dəstək göstərməsi, ilk növbədə, Fransanın özünə zərbədir.

### DƏYİŞMƏYƏN XİSLƏT, YOXSA SAXTA POPULİZM?

Fransa prezidenti Emmanuel Makron ötən il dekabrın 15-də Brüsseldə keçirilən "Şərq Tərəfdaşlığı" sammiti çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanla videogörüşünü müşayiət edərkən, özünün "Twitter" səhifəsində Ermənistana dəstək olacağını qeyd edib. Fransa prezidenti "Biz erməniləri heç vaxt tərk etməyəcəyik. Biz həmişə davamlı sülhün bərqərar olması üçün həll yolları axtaracağıq. Mən qarşıdan gələn bayramları sülh və humanitar sahədə nailiyyətlər dövrünə çevirməyə çağırıram"- yazıb. Ancaq onun səhəri günü isə Makronun vasitəçiliyi ilə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında daha bir görüş baş tutub. Fransa Prezidenti Emmanuel Makron feysbukdakı hesabında Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü ilə bağlı paylaşım edib. Qeyd edək ki, hətta o, Azərbaycan dilində status yazıb: "Biz davamlı sülh üçün həll yolları tapmalıyıq. Dünən axşam Prezident Əliyevlə, sonra da baş nazir Paşinyanla birgə irəlilədik", - paylaşımda bildirilib.

Bu yerdə qalırsan nə deyəsən. Göründüyü kimi, bir-birindən absurd olan fikirlər, və yaxud Makronun absurd bəyanatları. "Azərbaycan qoşunları Ermənistan ərazisini tərk etməlidir və tərəflər tutduqları mövqelərə qayıtmalıdırlar", deyən Makron bildirib ki, "mən həmçinin bütün əsirlərin azad edilməsi, humanitar təşkilatların regiona çıxışına qoyulan məhdudiyyətlərin götürülməsi zərurəti və mürəkkəb minalanmış zonalar məsələsi haqqında düşünürəm". Göründüyü kimi, bir-birindən absurd olan bu cümlələri oxuyarkən Fransa liderinin "soyuq duşa" ehtiyacı olduğu hiss olunur. Onun "Azərbaycan qoşunları Ermənistan ərazisini tərk etməlidir, tərəflər tutduqları mövqelərə qayıtmalıdırlar" açıqlaması bu ölkənin liderinin nə qədər absurd nəzər nöqtəsinə malik olduğunun sübutudur.

### DÜNYA SİYASƏTÇİLƏRİ EMMANUEL MAKRONU FRANSANIN ƏN ZİDDİYYƏTLİ PREZİDENTLƏRİNDƏN BİRİ, BƏLKƏ DƏ ƏN BİRİNCİSİ HESAB EDİR

Bir sözlə, Emmanuel Makron Fransanın ən ziddiyyətli prezidentlərindən biri, bəlkə də ən birincisidir. Fransız siyasətçilər Makron haqqında belə deyirlər: "O, hamı ilə dostdur, amma heç kimin dostu deyil".İngilis siyasətçilərin də gəldiyi qənaət budur: "Makron erməniləri müdafiə etməyə məhkum və məcburdur, onu qorxudan əsas məsələ isə odur ki, prezident kimi birtərəfli mövqeyi sonda Fransanın ATƏT-in Minsk qurpundakı həmsədrlikdən uzaqlaşdırılması, regionda təsir imkanlarının hədsiz şəkildə azalması ilə nəticələnə bilər".Fransız siyasətçilər hesab edirlər ki, "Makronun Qarabağ məsələsindəki hazırkı mövqeyi onun ənənəvi və axına qarşı getmə instinkti (psixoloji durumu) və Fransanın maliyyə sistemindəki erməni dostlarının olması ilə bağlıdır".Türkiyəli ekspertər düşünürlər ki, Makron kiçik hərəkətlərdən özünə böyük düşmənlər qazana bilmək "qabiliyyətinə" malikdir. Elə sonda Makronun dediyi fikir bir daha onun xislətini göstərir: "Biz heç vaxt erməniləri tək qoymayacağıq. Həmişə davamlı sülh üçün həll yolları axtaracağıq. Qarşıdan gələn bayramların sülh və humanitar sahədə nailiyyətlər dövrünə çevrilməsinə çağırıram".

Bəli, bu Makronun sifəti, xislətidir. Belə ki, bu sifətin xisləti olduğunu Makronun prezidentliyi dövründə Azərbaycana səfər etmədiyində gördük. Ancaq müharibədən aylar sonra müşavirləri Makrona anlatdılar ki, Cənubi Qafqazın əsas dövləti olan Azərbaycanla da hesablaşmaq lazımdır. Və bu gün də Makron öz ikiüzlü sifətini və xislətini nümayiş etdirməkdədir. Ancaq Makron və onun kimi ikili standartlardan çıxış edən qərəzli Qərb liderləri anlamırlar ki, nə qədər yarıtmaz mövqey nümayiş etdirsələr də Azərbaycanı haqq işindən yayındıra bilməyəcək. Və buna əmin ola bilərsiniz ki, "Dəmir Yumruq" yerindədir!

**RƏFİQƏ KAMALQIZI**

FELYETON

## Nə etməli?



Vallah, ta deməkdən də yorulmuşuq, yazmaqdan da.

Nə etməli?

Nə qədər demək, nə qədər yazmaq olar? Axı bu dilin günahı nədir ki, illərdir ki, insanlardan çəkdikcə çəkir?

Nə etməli?

Biri ona rus dili yamayır, biri türk dili, biri ingilis dili...

Nə etməli?

***

O gün qəzet köşklərinin birinin qarşısında dayanmışam. Qəzet alıram. İki gənc qız yaxınlaşdı köşkə. Gördüm ki, birbaşa üstümə gəlirlər, heç növbə, sıra gözləmək fikirləri yoxdur, bir kənara çəkildim. Çəkildim, çünki hiss etdim ki, elə başımın üstündən satıcıya müraciət edəcəklər.

Salamsız, sabahsız, qızlardan biri:

-Sizdə poşete var?

Satıcı:

-Nə?

-Poşete.

-Ay qızım, anlamadım, nə istəyirdiniz?

Bu dəfə görünür qız təbindən çıxdı və hirslə:

-Poşete də, poşete...

Satıcı:

-Göstərə bilərsiniz, vallah, nə istədiyinizi anlamadım.

Bu dəfə isə qız daha çox hirsləndi və satıcıya nə desə yaxşıdır?

-Bilmirsinizsə, burada nə üçün oturmusunuz.

Satıcı:

-Ay qızım, burada nə üçün oturmağımı özüm bilərəm. Sən zəhmət olmasa, bir Azərbaycan dilində danış, görüm, nə deyirsən.

-A, siz bilmirsiniz, poşete nədir?

Satıcı:

-Xeyr, bilmirəm, bilmək də istəmirəm.

Gördüm ki, bunlar dalaşacaqlar, müdaxilə etməli oldum:

-Kağız çanta deyir,əmi.

Satıcı qızışdı, nə qızışdı:

-Ay bala, niyə öz dilimizdə danışmırsınız? Hələ bir üstəlik məni də günahkar çıxarırsınız. Mən nə bilim poşetemoşete nə deməkdir? Az qalırsan ki, məni döyəsən də hələ. Sən haradan öyrənmisən bu poşete sözünü. Həm də ki, elə bir əda ilə tələffüz edirsən ki, heç nə anlamaq olmur. Yox, burada poşete-zad yoxdur.

Qızlar çox narazı şəkildə, necə deyərlər, satıcıya əməlli-başlı yuxarıdan aşağıya baxdılar və köşkdən ayrıldılar. Aralarında danışdıqları bu sözləri eşitdim:

-Köhnəliyin qalığı, bilmir ki, poşete nədir...

Mənim də ki, cin vurub başıma, lakin nə etməli?

İndi gənclərimizin əksəriyyəti belədir ey... Bax bunlarla nə etməli?

***

Hələ bu harasıdır ki... Çıx şəhəri gəz, dolaş. Böyük ticarət mərkəzlərindən, restoran, kafe, şadlıq saraylarından tutmuş kiçik mağaza, marketlərədək tanıtım lövhələrinə nəzər sal, onda bax, otur bu dilin dərdi-sərini ağla. Bir neçə saat dayan küçədə, ətrafı müşahidə et, otur parkda ətrafa qulaq ver. Neçə-neçə belə gənc oğlan, qız görəcəksən, dilimizə qarışdırıb danışdıqları sözləri eşidəcəksən. Onda bu dilin başına gələnləri anlayacaqsan və deyəcəksən: nə etməli?

***

Nə etməli?

Heç nə, oturub əməlli-başlı düşünməli. Düşünməli ki, ay qardaşlar, ay bacılar, gəlin görək Türkiyədə bir nəfər türk köşkə yaxınlaşıb bizim dilimizdə nə isə istəyər? Gəlin görək, rus, ingilis ticarət mərkəzinin, restoran, kafe, market, nə bilim nələrinin üzərinə Azərbaycan dilində bircə kəlmə söz yazar? Və yaxud da küçədə, filanda dilinə bir kəlmə bizim dilimizdən söz qatar?

Nə etməli?

Heç nə, nə edəcəyik? Oturub özümüz özümüzə əməlli-başlı gülməliyik.

***

Hə, daha nə etməli?

Nə etməli, özümüz özümüzə gülərkən bəlkə o qəhqəhələrdən oyanıb özümüzə gələ bilərik. Bunu etməli. Etməli və ayılmalı. Dilimizə qayıdıb, öz dilimizdə danışmalı. Bircə kəlməsini də o dilə, bu dilə satmamalı. Çünki ana dili satılmağa layiq deyil. O, gözümüzdür, gözümüzü qoruduğumuz kimi onu da qorumalıyıq.

Nə etməli?

Deyilənləri eşidib, riayət etməli. Daha heç nə..

***Mətanət Məmmədova***

SİYASİ RAKURS+AKTUAL

# Bakı lazım olanı etdi - RSK isə fəaliyyətini yenidən nəzərdən keçirməlidir!



**İqor Korotçenko: "Artsaxı" Kaliforniyada yaratmaq lazımdır - oradakı iqlim və demoqrafik situasiya tamamilə yararlıdır... ATƏT-in Minsk qrupu köməkləri olsun..!"**










***Rusiya sülhməramlıları kontingentinin (RSK) Qarabağda müvəqqəti yerləşdikləri ərazilərdə erməni separatçı-quldur dəstələrinin təxribatçı hərəkətləri nəticə etibarı ilə uzun müddət səbr və təmkin nümayiş etdirən Azərbaycan tərəfinin hiddətinə səbəb oldu. İstər ictimaiyyət, istərsə də müvafiq dövlət qurumları artıq əməli şəkildə RSK-nın olduğu bölgələrdəki özbaşınalıqlara son qoyulmasını tələb olaraq irəli sürdülər. Təkcə Ekologiya və Təbii Sərvətlər Nazirliyi səlahiyyətlilərinin Laçın-Xankəndi yolu üzərindəki RSK komandanlığı ilə tələb xarakterli görüşü və RSK-nın komandanı Volkovun təklifi ilə həmin görüşün Xocalıdakı qərargahında davam etdirilməsi separatçıların necə təlaşa düşmələrini kifayət qədər sübuta yetirdi.***

### "Kommersant": "Bakı ərazi probleminin uzadılmasından narazıdır və birtərəfli qaydada məsələnin tezləşdirilməsini tələb edir"

Bu arada, Rusiyanın "Kommersant" nəşri yazıb ki, Azərbaycanın Ermənistanı Qarabağla əlaqələndirən Laçın dəhlizini bağlamaqla gücünü nümayiş etdirməsi boş xəbərdarlıqlar deyil, əslində həyata keçirilən ssenaridir. "Şənbə günü azərbaycanlılar de-fakto qarabağlı ermənilər üçün həyat əhəmiyyətli yoldakı hərəkəti dayandırdılar", deyə yazan Rusiya qəzeti qeyd edib ki, RSK-nın komandanı, general-mayor Andrey Volkovun məsələyə müdaxiləsindən və aparılan danışıqlardan sonra məsələ yoluna qoyulub.

"Kommersant" əlavə edib: "Bu insident onu göstərdi ki, Bakı ərazi probleminin uzadılmasından narazıdır və birtərəfli qaydada məsələnin tezləşdirilməsini tələb edir"

### Korotçenkoya görə, Qərbə bağlı olan erməni lobbisi Bakı ilə Moskva arasında hərbi münaqişə yaratmaq, Türkiyə və NATO-nu da cəlb etməklə Rusiyaya qarşı ikinci cəbhə açmağa cəhd edirlər

Lakin ortada digər diqqətçəkən məqamlar var və həmin məqamları Rusiyanın "Milli müdafiə" jurnalının baş redaktoru, politoloq İqor Korotçenko şəxsi teleqram səhifəsində irəli sürdüyü maraqdoğurucu şərhi ilə izah etməyə çalışıb.

Onun fikrincə, beynəlxalq erməni lobbisinin, diasporunun və onların arxalarında dayanmış Qərb xüsusi xidmət orqanlarının (MKİ və DGSE) hədəf və məqsədləri RSK ilə Azərbaycan hərbçiləri arasında qarşıdurma yaratmaq, sonradan həmin qarşıdurmanı Türkiyənin də cəlb olunması, eləcə də NATO qoşunlarının Cənubi Qafqaz regionuna daxil edilməsi ilə Rusiya və Azərbaycan arasında irimiqyaslı hərbi münaqişəyə çevirməkdən ibarətdir. Korotçenkoya görə, bu, faktiki olaraq hazırda özünün hərbi və iqtisadi gücünü hərbi əməliyyatlara (Ukraynadakı müharibəyə-R.R.) qoyan Rusiya Federasiyasına qarşı ikinci cəbhənin açılması anlamını daşıya bilər. SİTAT: "Və bütün bunlar erməni millətçilərinin, orada çürüməkdə olan korrupsiyaya bulaşmış separatçı administrasiyasının Qarabağın Azərbaycandan qopardılması cəhdlərinə yönəlib".

### "Milli müdafiə" jurnalının baş redaktoru: "Rusiya Federasiyası özünün milli maraqlarına ziyan vurmamaq üçün dünya erməniçiliyinin qaranlıq siyasi maraqlarının realizəsinə alət olmamalıdır"

Rusiyalı politoloq xatırladıb ki, erməni millətçiləri artıq bir dəfə SSRİ-nin dağılması mexanizmini işə salıblar və indi də onlar Rusiya Federasiyasının dağılması mexanizmini işə salmaq istəyirlər. SİTAT: "Moskva özünün siyasi praktikasında Rusiya ilə Azərbaycan arasında mövcud olan müttəfiqlik Bəyannaməsinin baza prinsiplərinə əsaslanmalıdır. Qarabağ Azərbaycandır! Azərbaycanın Qarabağ iqtisadi rayonunu ərazisində olan erməni separatçı rejimi ümumiyyətlə Rusiyanın nə dostu, nə də müttəfiqidirlər. Rusiya Federasiyası özünün milli maraqlarına ziyan vurmamaq üçün dünya erməniçiliyinin qaranlıq siyasi maraqlarının realizəsinə alət olmamalıdır".

Korotçenko ermənilərin "ikinci erməni dövləti qurmaq" ideyalarına özünəməxsus təklif də irəli sürüb. "Artsaxı" Kaliforniyada yaratmaq lazımdır - oradakı iqlim və demoqrafik situasiya tamamilə yararlıdır. ATƏT-in Minsk qrupu köməkləri olsun!", deyə İqor Korotçenko sözügedən şərhində istehza ilə bildirib.

***Rövşən RƏSULOV***

---



Elçin Bayramlı

# Niyə və necə dəyişdik?

**Son vaxtlar maddi dəyərlər mənəvi dəyərləri üstələməkdədir. İnsanlarda depressiya, stress artıb. Hiyləgərlik üsulları xeyli rəngarəngləşib və təkmilləşib. Ümumi cəmiyyət maraqları şəxsi maraqlara qurban verilir. Əsas məqsəd çoxlu pul qazanmaq, vəzifə, şöhrət əldə etmək və özünü başqalarından üstün göstərmək üzərində fokuslanıb. Qanunu, qaydanı pozmaq üstünlük sayılır, başqalarından fərqlənmək (bu hətta pis şeylərdə olsa belə) azarı gənclər arasında geniş yayılır.**

Hətta gərgin münasibətlər ətraf mühitdən ailə daxilinə keçib və məhz bu səbəbdən münaqişələrin, boşanmaların və ailədaxili qətllərin sayı artır. Böyük sözünü vecinə alan da yoxdur. Bir çox gənclər açıqca deyirlər ki, biz hər şeyi bilirik və doğru edirik, siz yaşlı nəsil heç nə bilmirsiniz və səhv edirsiniz. Lakin reallıq bütün dövrlərdə və bütün ölkələrdə olduğu kimi tam əksini göstərir. Əvvəllər milli-mənəvi dəyərlərimiz həyatımızın əsas sütunu idi. El arasında yazılmamış qanunlar adlandırılan ictimai davranış kodeksləri var idi və buna əməl olunurdu.

İnsanlar bir-biri ilə ədəb-ərkanla davranır, böyük-kiçik, qadın-kişi yeri bilinirdi. İctimai yerlərdə şit hərəkətlər, ucadan mahnı oxutmaq, dar keçidlərdə yolu kəsərək söhbətləşmək və ya zarafatyana süpürləşmək, ucadan danışmaq, hara gəldi zibil atmaq, avtobusda sürücü ilə söyüşmək yəqin ki, heç kimin ağlına belə gəlmirdi.

21-ci əsrə keçid sanki başqa bir dünyanı gətirdi. Pul və vəzifə uğrunda amansızcasına mübarizə mənəvi dəyərləri tədricən arxa plana keçirdi. Təhsilə, elmə, mədəniyyətə marağı əyləncənin əvəz etməsi, ağsaqqal-qarasaqqal münasibətlərinin çərçivədən çıxması, TV-lərdən şou, serial və kriminal verilişlərlə kütləvi əxlaqsızlaşma, psixotron terror, davamlı reklam təcavüzü ilə zövqlərin, xüsusiyyətlərin, davranışların, dəbin hansısa şübhəli xarici mərkəzlərdən formalaşdırılması siyahı təəssüf ki, xeyli uzundur. Bu psixotron terror mənəvi zombiləşmənin əsasını qoymaqdadır.

Bu tendensiya real həyatdan indi də virtual həyata keçib. Mediada təhqir, böhtan, şantaj yalan xəbər yayıb çoxlu izləyici əldə etmək və pul qazanmaq daha ayıb sayılmır. İnternet saytlarda biabırçılıq baş alıb gedir. Televiziyalar daha çox mənfi şeyləri təbliğ edir, maddi dəyərlərin mənəvi dəyərlərdən üstün olduğunu "göstərirlər" (burada əlbəttə dövlət və ictimai televiziya kanallarını istisna etmək lazımdır, onlar hələ də televiziyanın funksiyasını unutmayıblar).

Sosial şəbəkələrdə adamlar normal müzakirə aparmaq əvəzinə bir-birini "qırır". Heç kimin sözü heç kimə xoş gəlmir. Heç kim heç kimin "kitabını oxumur". Həqiqəti deyəni, nöqsanlarımızı üzə çıxaranı, düzəltməyə çalışanları, mənəvi dəyərləri müdafiə edənləri "geridə qalmış" adlandırır və az qalırlar linç edələr. Bəli, bu gün, bəzi qlobal mərkəzlər tərəfindən cəmiyyətimizə yad dəyərlər oturdulur, hər şey tədricən dəyişdirilir. Bunun nəticəsində, indi müsbət şeylər mənfi sayılır, mənfi şeylər müsbət. Mənfilər çoxaldıqca müsbətlər azalır. Azlıq çoxluğa tabe olur.

İndiki qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi daha çox qorumalıyıq, çünki indiyədək heç vaxt olmadığı qədər güclü təzyiq və terror altındadır. Elmə-təhsilə daha çox fikir verib irəli getməliyik. Sağlam düşüncəli, savadlı uşaqlar yetişdirib tərbiyə etməli, xalqımızı, ölkəmizi dünyanın inkişaf etmiş ölkəsinə çevirəcək insanları qorumalı, küçə müğənnilərini və yarıçılpaq modelləri dinləmək əvəzinə alimləri, ziyalıları dinləməliyik. Yalnız bu yolla bir millət kimi yaşaya və inkişaf edə bilərik.

# Veriko Turaşvili: ”Başa düşdüm ki, bunlar Azərbaycan xalqının mənəvi irsidir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” çərçivəsində hazırlanıb.

**Gürcü müğənnisi: "Sarı gəlin", "Laçın" kimi mahnılar seçiləndə bunun risk olduğunu anladım. Amma həm ölkəmdə, həm də Azərbaycanda bu qədər təriflər aldıqdan sonra anladım ki, layihəmin birinci mərhələsi özünü doğruldub**





Nakam sevgilinin oxuduğu əsrarəngiz gözəl qızdan bəhs edən Azərbaycan mahnısı ”Sarı gəlin” dünyanın bir çox ölkələrində tanınır. Hətta, dünya şöhrətli əfsanəvi müğənni Toto Kutunio onu azərbaycanca oxuyub. Bu yaxınlarda Azərbaycan xalqının bu məşhur xalq mahnısı iki dildə: gürcü və azərbaycan dillərində səslənidirilib. Onu məşhur gürcü müğənnisi Veriko Turaşvili ifa edib. Müğənni mahnıya klip çəkdirsə də, bununla da kifayətlənməyib. Veriko məşhur Azərbaycan mahnılarını yeni albomuna daxil etmək qərarına gəlib. Onu belə bir yaradıcılıq eksperimentinə nə vadar edib? Müğənni bu haqda ”Moskva-Baku” portalına müsahibəsində deyib. Veriko həmçinin, mahnını əsl azərbaycanlı kimi ifa etməsinə nəyin kömək etdiyini, Azərbaycan mədəniyyətində özü üçün hansı xüsusiyyətləri kəşf etdiyini və Bakıda daha hansı layihələri həyata keçirməyi planlaşdırdığını da danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Azərbaycan mədəniyyəti və ölkənmizlə ilk tanışlığınız nə vaxta təsadüf edir?***

- Azərbaycan mədəniyyəti ilə ilk əlaqəm musiqi və mədəniyyətlə bilavasitə bağlı olan dərin uşaqlıq illərimə təsadüf edir. Mənim üçün Azərbaycan musiqisi təbii ki, çox yaxındır. Xarakteri, səsi, melismatikası ilə yaxındır. Onun mənim qəlbimdə həmişə xüsusi yeri olub. Bu yaz Azərbaycana gəldim və bu səfər məni yeni yaradıcı layihələrə ruhlandırdı.

***- Azərbaycan və Gürcüstanın mədəniyyətləri bir-birinə bənzəyirmi?***

- Gürcüstanda böyük Azərbaycan diasporu yaşayır. Çoxillik dostluğumuz təbii olaraq mədəniyyətimizə də sirayət eləyib. Xüsusilə köhnə Tiflis mahnılarında. Gürcü dilində oxunan Azərbaycan motivli mahnılarımız çoxdur.

***- Azərbaycan dilində mahnılar yazdırmısınız, təkcə bəstəkar mahnıları yox, həm də xalq mahnıları. Sizi bu eksperimentə nə vadar etdi?***

- Məni belə gözəl yaradıcılıq layihəsinə yalnız Azərbaycan musiqisinə böyük sevgi gətirib. "Sarı gəlin", ”Laçın” kimi mahnılar seçiləndə bunun risk olduğunu anladım. Çünki başa düşdüm ki, bunlar sadəcə mahnılar deyil, bunlar Azərbaycan xalqının mənəvi irsidir. Amma həm ölkəmdə, həm də Azərbaycanda bu qədər təriflər aldıqdan sonra anladım ki, layihəmin birinci mərhələsi özünü doğruldub.

***- Azərbaycan dilini öyrənmisiniz?***

- Təəssüf ki, hələlik dili öyrənməmişəm. Amma oxuduğum mahnıların sözlərinə gəlincə, hər sözün mənasını bilirəm. Çünki əks halda ürəkdən oxumaq işə yaramayacaq. Azərbaycan dilində mahnı oxumağı çox sevirəm. Yeri gəlmişkən, çoxları deyir ki, mən azərbaycanlı kimi oxuyuram (gülür).

***- "Sarı gəlin" mahnısının klipi harada çəkilib?***

- ”Sarı gəlin” mahnısına Tbilisidə klip çəkdirmişik. Amma bu, Azərbaycan mahnısı üçün yeganə klip olmayacaq. Mən tam bir proqram üzərində işləyirəm. Alboma daxil olan bəstələri Azərbaycan və gürcü dillərində ifa edirəm. Artıq ”Sarı gəlin”, ”Laçın”, ”Arzu” və başqa mahnılar lentə alınıb. Albomun iki-üç aya çıxmasını planlaşdırırıq. Azərbaycanda da iki klip çəkdirəcəyik. Ümid edirəm ki, ifa etdiyim bəstələr Azərbaycan dinləyiciləri tərəfindən bəyəniləcək və seviləcəkdir.

***- Azərbaycanlı ifaçılardan hansı ilə yaradıcı əməkdaşlıq etmək istərdiniz?***

- Hələlik vokalçılarla əməkdaşlıq üçün konkret plan yoxdur. Amma təbii ki, Azərbaycan müğənniləri arasında mənim sevimlilərim var. Hazırda Bakıdan çox istedadlı instrumental ifaçılarla işləyirəm. Gürcüstandan Azərbaycana səmimi salamlarımı çatdırıram!

***Tərcümə - Lalə***

# Məndən söyləməkdir, sizdən...

Bədii ədəbiyyatın gözəl nümunələri idrakın kainatla bağlı olduğu zamanda, insanın həyatı dərk etmək zamanı meydana çıxır. Yaradılın əsərlərin mahiyyəti o zaman işıqlı və dəyərli olur ki, orada insan dəyəri, bəşəri ideyalar ön planda meydana çıxır və bəşər övladının dünyanı dərk etmək prosesinə təsirini göstərə bilir. Ruhu incə, nəcib və səmimi olan şəxslərin yaradıcılıq dünyasından nəzmə və nəsrə köçürülən ideyalar sənət dünyamıza yeni nəfəs və çalarlar bəxş edir. Əlbəttə ki, bədii əsərlər düşünən qəlblərin ən isti və doğma yeridir. Oxucularla aralarında körpü salan və görüşlərini paylaşan qələm sahibləri də bu körpüdə bir rahatlıq tapır və cəmiyyətə əsərləri ilə ötürdüyü mesajları, əsas ideyanı boyaların rəngində, bədii təsvirdə, obrazlıqda çatdıra bilirlər. Bu gün söz qılıncının kəsəri ilə ədəbiyyatımıza yol açmış həkim-yazıçı Asif Kəngərli yaradıcılığına nəzər salıb, onun bu yaxınlarda işıq üzü görmüş və dövrümüz üçün ən aktual olan mövzulardan birinə həsr olunmuş ”Bəla” kitabı ilə oxucularımızı tanış edəcəyik. Kitaba müəllifin məqalələri, pyesləri, hekayələri və lətifələri daxildir. Yazıçı tövsiyə edir ki, ”Bəla”nı oxuyun ki, bəlalardan uzaq olasınız.

İlk olaraq qısa da olsa Asif Kəngərlinin keçdiyi həyat yolunu vərəqləyək. Orta məktəbi müvəffəqiyyətlə başa vuraraq, həqiqi hərbi xidmətdə olmuşdur. Sonra Azərbaycan Dövlət Tibb İnstitutunun II Müalicə fakültəsində təhsil almış, internaturada ona psixonevroloq ixtisası verildikdən sonra doğma Naxçıvana qayıtmış, əvvəlcə Naxçıvan Respublika Xəstəxanasında metodist, sonra rayonlararası HƏEK-da ekspert-nevropatoloq və Naxçıvan RND-də baş həkim vəzifələrində çalışmışdır. 2003-cü ildə respublika baş narkoloqunun təkidilə Respublika Narkoloji dispanserinə işə dəvət olunmuş və həmin zamandan etibarən Asif




Kəngərli Bakıda yaşayır və hazırda Anonim Narkoloji Müalicə-Məsləhət Kabinetində psixiatr-narkoloq işləyir. Bədii yaradıcılığa isə 2002-ci ildə, 48 yaşında ikən başlayıb. Bəlkə də qələmə sarılmağına səbəb onun işi və hər gün qarşılaşdığı insanların taleyinə laqeyd qalmaması isə əlaqədər olmuşdur. Qələmə aldığı ilk əsər ”Bəla” pyesi olub və sonralar ”Zəhrimar” və ”Şər suyu”, ”Bəla” (İstanbul, 2014), həmçinin ”Tütünçəkmə barədə hər şey”, ”Alkoqol - sağlamlığın və sağlam həyat tərzinin düşməni”, ”Narkotik maddə - ailəvi qırğın ”silahı” adlı kitabları işıq üzü görmüş, oxucular arasında böyük rəğbətlə qarşılanmışdır. Ədalət və vicdanın diqtəsinə, daxilindən gələn mənəvi səsə qulaq asaraq yazıb-yaradan yazıçı həyat hadisələrinə birmənalı olaraq yanaşaraq, dəyərli fikirləri ilə ədəbiyyat aləmində yaradıcılıq təxəyyülünə məxsus olan dəyərləri ortaya qoya bilmişdir. İri-xırdalı əsərləri ilə qəhrəmanlarının simasında mənfi və müsbət tərəfləri göstərib, obrazları vasitəsi ilə cəmiyyətin xoşagəlməyən tərəflərini qələmə almışdır. Tabakomaniya, alkoqolizm və narkomaniyaya bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Onun yaratdığı problemlər cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Bu günə qədər onun çap olunan əsərləri zamanın insan təfəkkürünə diqtəsindən yaranmışdır. Belə ki, yazıçının əsərləri birbaşa həyatla bağlı olan əsərlərdir. Onların hər birinin süjeti, məhz yaşanılan həyatın təsir gücündən qidalanıb. Öz qəhrəmanlarını yaşadığı həyatda axtarıb tapan və onların bədiiləşmiş tipini əsərlərində nəzərəçarpacaq bir səviyyədə təqdim edən yazıçı bütün bunları onu əhatə edən insanların, daha dəqiq desək, oxucu üçün marağa səbəb olacaq bir şəkildə qələmə alır. Qeyd edək ki, hələ 2006-cı ilə ”Bəla” pyesinin teatr tamaşası anşlaqla keçmişdir. Həmçinin ”Bəla” və ”Zəhrimar” adlı pyesləri Azərbaycan Milli radiosunda radio teatrı kimi hazırlanmışdır ki, bunlar da dinləyicilərin marağına səbəb olduğu üçün vaxtaşırı efirdə səslənir. ”Bəla” radionun qızıl fonduna daxildir və film-tamaşası da hazırdır. Onu da qeyd edək ki, müəllif baş həkim rolunda çəkilib, O, bir həkim-yazıçı kimi yeniyetmələrlə gənclər arasında tabakomaniya, alkoqolizm və narkomaniyaya qarşı təhsil ocaqlarında yorulmadan maarifləndirici iş aparan ziyalı kimi də tanınır. Yazıçı insanlarla dialoqa girərək, onları sağlam həyata dəvət edir. ”Məndən söyləməkdir, sizdən ” başlıqlı yazıda qeyd olunur ki, həyatda olduğu kimi, bu aləmdə də hər şey sadədən mürəkkəbə, azdan çoxa doğru gedir: adam əvvəlcə siqaret çəkir, sonra nəsə çəkir, axırda iynə vurur... Narkotikə tərəf gedən o bəlalı yol, məhz siqaretdən başlayır. Ümumdünya Səhiyyə Təşkilatı bir araşdırma aparıb: onlar siqaret çəkməyə başlayan gəncləri on-on ayırıb yollarını izləyiblər. Məlum olub ki, hər onluğun beşi yalnız siqaret çəkməklə kifayətlənib, ikinci beşlikdən ikisi bir-iki dəfə, ikisi beş-on dəfə, biri isə daimi nəşə çəkən xəstəyə - nəşəxora çevrilir. Həmin xəstə isə beş-altı ildən sonra ağır narkotikə - heroinə keçir. Faciə də bundan sonra başlayır”

Narkomaniya - psixosomatik xəstəlikdir, beləsinin nə sağlam canı, nə də sağlam ruhu ola bilər”, - deyə müəllif yazır. Müəllif kitabında onu da yazır ki, narkotik maddə, yaxud alkoqoldan sui-istifadə etmək insanın sanki qibləgahını dəyişdirir, o, Kəbəyə deyil, artıq Şeytana səcdə qılır, bütün çirkinliklər də elə buradan qaynaqlanır: ”Əgər ”içki bütün çirkinliklərin anası”dırsa, onda ”narkotik də onun atası”dır. Mən Yer üzündə ikinci elə bir şey tanımıram ki, narkotik maddə qədər adamı hər şeydən belə total şəkildə məhrum edə bilsin. Vaxtilə sağlam olan bir gəncin narkotikə uyması bir əsgərin itirilməsi, yaxud bir qızın ”boş” qalması deməkdir. Əgər o ailəlidirsə, onda o ailənin başı üzərində Damokl qılıncı asılmış kimidir: boşanma təhlükəsi anbaan artar”.Kitabda həkim-yazıçı Asif Kəngərlinin narkomaniya, alkoqolizm və tabakomaniya mövzusunda qələmə aldığı pyes və hekayələri toplanıb, Həmin nümunələrdə qeyd olunan problemlər həm bədii-sənədli, həm elmi-tibbi, həm də dini baxış bucağından çox gözəl təsvir olunur.

***Nəzakət ƏLƏDDİNQIZI***

SƏS
6 dekabr
2022-ci il

ARAŞDIRMA

# Təcrübə proqramlarının gənclərin həyatındakı rolu nədir?



Təcrübə proqramları müxtəlif istiqamətlərdə və sahələrdə fəal şəkildə həyata keçirilir. Avropalı siyasətçilər bunu əmək bazarında vəziyyəti yaxşılaşdırmaq üçün fürsət kimi qiymətləndirirlər. Təcrübə proqramları işsizliklə mübarizə strategiyasının bir hissəsi kimi yaradılmışdır. Onlar əmək bürosu tərəfindən təşkil olunur ki, təhsilini yeni almış gənclər lazımi praktiki bacarıqlara yiyələnsinlər və öz səriştələrini təkmilləşdirsinlər. Təcrübənin iki əsas funksiyası var:

Təcili işləri yerinə yetirmək üçün insanlara ehtiyacı olan, lakin maliyyə imkanları əlavə işçilərin işə götürülməsinə imkan verməyən müəssisələrə, təşkilatlara və korporasiyalara kömək etmək; İşsizlərin məşğulluğu üçün şərait yaratmaq, onlara təcrübə və sonrakı iş üçün zəruri bacarıqlar əldə etmək imkanı vermək.

İş təcrübəsi olmayan işsiz mütəxəssislər üçün təcrübə proqramları Avropa İttifaqının təsisatları vasitəsilə maliyyələşdirilir. İşəgötürən, öz növbəsində, təcrübəçilərə əlavə bonuslar ödəyə bilir.

### Beynəlxalq təcrübə proqramların faydaları nədir?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Universitet və ya kolleclərdə tələbələr əsasən nəzəri biliklərə yiyələnir, lakin onu necə tətbiq etmək sual olaraq qalır. Təcrübədə nəzəriyyəni praktikada diqqətlə, lakin səmərəli şəkildə tətbiq edə və bir mütəxəssis kimi inkişaf edə bilirlər.

Dil biliklərini tətbiq etmək və yüksək səviyyədə mənimsəmək imkanı.

- Faydalı praktiki bacarıqların əldə edilməsi.

- Eyni şirkətdə işləməyə davam etmək imkanı. Çox vaxt təcrübənin sonunda iştirakçıları daimi işə götürülürlər. Lakin bunun üçün ən yaxşı tərəfinizi göstərməlisiniz ki, işəgötürən sizin şirkət üçün dəyərinizi başa düşsün. Ona görə də təcrübənin ilk günlərindən təşəbbüs göstərmək, komandaya qoşulmağa çalışmaq, öz vəzifələrini mükəmməl şəkildə yerinə yetirmək vacibdir.

Burada xüsusi proqram tələbləri yoxdur. Əsas odur ki, müəyyən bir vəzifə üçün peşəkar meyarlara cavab verməlisiniz. Ölkəmizdə də bir çox təcrübə proqramları təşkil olunur ki, bunun da gənclərin gələcəyi və karyerası üçün faydaları misilsizdir. Belə proqramlardan biri də "İrəliləyiş" layihəsidir.

Dövlət Məşğulluq Agentliyinin Strateji kommunikasiya departamentindən SİA-ya verilən məlumatda qeyd olunur: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı, Azərbaycan Respublikası Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının tərəfdaşlığı ilə "İrəliləyiş" layihəsinə start verilib.

"Hər kəsin təcrübəsi olacaq, heç kim işsiz qalmayacaq"! devizi ilə keçirilən layihənin məqsədi ölkədə fəaliyyət göstərən şirkət və təşkilatlarda beynəlxalq normalara uyğunlaşan təcrübə proqramları formalaşdırmaq və yüksək potensiallı gənclərin karyera bacarıqlarını inkişaf etdirmək üçün həmin təcrübə proqramlarında iştirakını təmin etməkdir. Layihə çərçivəsində 1500 nəfər gəncin seçilməsi, təlimlərə və 2 aylıq təcrübə proqramına cəlb olunması planlaşdırılır. Bildiyiniz kimi Dövlət Məşğulluq Agentliyi gənclərin işsizlik problemini aradan qaldırmaq məqsədilə işəgötürənlər ilə onlar arasında körpü rolunu oynayır. Layihənin müsbət cəhəti və gözlənti ondan ibarətdir ki, 1500 gənc həm müəyyən biliklərə sahib olacaq, həm də iş təcrübəsi qazanacaq. Layihə eyni zamanda uğurlu namizədlərin işlə təmin olunmasına da şərait yaradacaq.

Artıq layihəyə 3500-dən çox müraiət daxil olub. Hazırda proses davam edir. Müraciətçilərin təcrübə keçmək istədiyi əsas sahələr isə informasiya texnologiyaları, data analitika, dizayn, maliyyə, mühəndislik, bank işi, turizm və neft-qaz sahəsidir.

Qeyd edək ki, "İrəliləyiş" layihəsi çərçivəsində də Dövlət Məşğulluq Agentliyinin əsas tərəfdaşı işəgötürənlərdir. Artıq 40-dan çox işəgötürən layihədə iştirak üçün qeydiyyata alınıb. Daha çox işəgötürənin layihəyə cəlb olunması və layihənin hər iki tərəfi ilə sıx əlaqələrin qurulması nəticəsində gənclərin iş axtarışı zamanı qarşıladıqları əsas məhdudiyyət olan iş təcrübəsi tələbi nisbətən aradan qaldırılacaq".

***Havar Şəfiyeva***



## Mbappe bunu bacaran ilk futbolçu oldu!

**Fransa millisinin üzvü Kilian Mbappe dünya çempionatları tarixində rekorda imza atıb. Qol.az xəbər verir ki, o, buna DÇ-2022-nin 1/8 finalında Polşa ilə matçda (3:1) dubl etməklə nail olub. Nəticədə Mbappe mundialda vurduğu qolların sayın 9-a çatdırıb. Bununla da 24 yaşlı hücumçu rekorda imza atıb. İndiyədək heç bir oyunçu dünya çempionatlarında 24 yaşınadək 9 qol vura bilməyib.**

Həmçinin Mbappe mundiallardakı qol sayına görə Argentina yığmasının kapitanı Lionel Messiyə çatıb. Belə göstərici üçün Mbappeyə 11, Messiyə isə 23 matç lazım olub.

## Əkiz bacılar eyni insanla evləndilər

Hindistanda əkizlər eyni kişi ilə evləniblər. SİA-nın xarici mətbuata istinadən verdiyi



məlumata görə, polis hadisə ilə bağlı araşdırmalara başlayıb. Pinky və Rinky adlı qadınlar cümə günü Maharaştra əyalətinin Solapur şəhərindəki Akluj kəndində keçirilən toyda Atul Avtade ilə evləniblər. Mərasimin görüntüləri sosial şəbəkədə paylaşılıb.

Viral videodan sonra sosial şəbəkə istifadəçiləri nikahın qanuni olub-olmadığını müzakirə ediblər. Solapur polisi dünən şikayətdən sonra məsələ ilə bağlı araşdırma başlatdıqlarını açıqlayıb. Bəy barəsində də cinayət işi açılıb.




## Eşitmə məhdudiyyətli uşaqlar üçün xüsusi tədbir keçirilib

3 Dekabr Beynəlxalq Əlillər Günü münasibətilə eşitmə məhdudiyyətli uşaqlar üçün inkluziv kukla teatrı tamaşası təşkil olundu. Nağılçı və bloqqer Aytac Qəmbərovanın səhnələşdirdiyi tamaşa həm eşitmə və nitq məhdudiyyətli uşaqlar, həm də tədbirə qoşulan digər uşaqlar tərəfindən böyük maraqla izlənilib. Jest dili pedaqoqunun iştirakı ilə baş tutan tədbirdə 50-dən çox uşaq yer alıb. Tədbirin əsas məqsədi əyləncə və sosiallaşma yolu ilə uşaqlara qarşılıqlı qayğı hissini aşılamaq olub. Tamaşa "Libraff" kitab mağazasının uşaq oxu zalında keçirilib.



Qeyd edək ki, eşitmə və nitq məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyası "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətidir. "Bu Dünyanı Nağıl Edək" layihəsi çərçivəsində baş tutan tamaşanın video çarxı bütün uşaqların izləməsi üçün jestdili.az saytında yerləşdiriləcək. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**